Hüquq məsələləri və Beynəlxalq Əlaqələr Komissiyası

Hesabat məruzəsi

COM/REP/LAIR/001/FINAL

**6-CI İCLAS**
***31 oktyabr 2018, Bakı***

# TURKPA Üzv Dövlətlərinin terrorizmə qarşı mübarizə haqqında qanunvericiliyə dair ortaq mövqeyinin müəyyənləşdirilməsi

**Mündəricat**


| | | Səhifə |
|---|---|---|
| I. | Ön söz | 1 |
| II. | Giriş | 1-2 |
| III. | Terror anlayışının izahı | 3-7 |
| IV. | Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə | 7-11 |
| V. | Ekstradisiya (cinayətkarların təhvil verilməsi) və ya təqib (aut dedere aut judicare) öhdəliyi | 11-14 |
| VI. | Qaçqın statusunun geri götürülməsi | 14-20 |
| VII. | Siyasi cinayətlər üzrə istisnalar | 20-22 |
| VIII. | Terror qurbanlarının müdafiəsi | 22-24 |
| IX | Xarici terrorçuların fəaliyyətlərinin qarşısının alınması | 24-27 |
| X | Terrorizm və insan hüquqları | |
| Əlavə | | 36-39 |


* Xüsusi Məruzəçi Nizami Səfərov tərəfindən hazırlanmışdır.

## I. Ön söz

TURKPA Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Daimi Komissiyasının 16 – 19 May, 2016 – cı il tarixində Ankarada keçirilən əvvəlki yığıncağında növbəti iclasda “TURKPA Üzv Dövlətlərinin Terrorizmə qarşı mübarizə haqqında qanunvericiliyə dair Birgə Mövqeyinin müəyyənləşdirilməsi” məsələsinə baxmaq barədə qərar edilmiş və Azərbaycan Respublikasının nümayəndəsi Nizami Səfərov bu mövzuya dair hesabat hazırlamaq üçün təyin edilmişdir.

Bu hesabat TURKPA Üzv Dövlətlərinin hüquqi normaları, BMT-nin Qlobal Terrorizmlə Mübarizə Strategiyası, Avropa Birliyinin Terrorla Mübarizə Strategiyası, BMT-nin digər sektoral konvensiyaları və digər beynəlxalq təşkilatların (Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Əməkdaşlıq Təşkilatı, Ştatlar Təşkilatı, Afrika Birliyi Təşkilatı, Ərəb Birliyi) terrorizm ilə mübarizə və insan hüquqlarının və fundamental hüquqların müdafiəsi haqqında qanunvericiliyinin müfəssəl analizini təmin etməklə, ekspert tərəfindən hazırlanmışdır. Bundan əlavə, hesabat həmçinin beynəlxalq məhkəmələrin vacib qərarlarından və TURKPA – nın birgə mövqeyinin işlənib hazırlanması ilə əlaqəli məsələlərə dair digər elmi nəşrlərdən faydalanmışdır.

## II. Giriş

Transmilli cinayətlərin mühüm hissəsi olan terrorizm qlobal təhlükə və bütövlükdə beynəlxalq ictimaiyyəti narahat edən müasir problem kimi təzahür edir. “Bütövlükdə beynəlxalq cəmiyyət” anlayışının izahı beynəlxalq hüquqdan irəli gəlir. Bu anlayış Müqavilələr Hüququ haqqında Vyana Konvensiyasının 53 – cü Maddəsində istifadə edilir. Bu maddəyə əsasən: “Beynəlxalq ümumi hüququn imperativ norması dedikdə, bütövlükdə beynəlxalq dövlətlər birliyi tərəfindən geri çəkilməsinə icazə verilməyən və yalnız beynəlxalq ümumi hüququn eyni xarakterli növbəti norması ilə dəyişdirilə bilən norma kimi qəbul olunan və tanınan norma başa düşülür”. [1] Oxşar bəyanat 16 Dekabr, 1997 – ci il tarixli Terrorist Bombalamasının Qarşısının Alınması haqqında Beynəlxalq Konvensiyanın ön sözünün 10 – cu Maddəsində təqdim edilir. Bu maddəyə əsasən, terrorist bombalaması kimi hərəkətlər bütövlükdə beynəlxalq ictimaiyyəti narahat edən hadisələrdir. Bu kontekstdə, terrorçuluqda ittiham olunanların beynəlxalq cəmiyyətin fundamental dəyərlərini qorumaq üçün bütövlükdə ölkələr tərəfindən cinayət təqibinə cəlb olunmasını təmin etmək vacibdir.

Terrorizmin mürəkkəb xarakteri yalnız onun obyektiv və subyektiv komponentlərinin mürəkkəbliyi ilə deyil, eyni zamanda onun hüquqi müdafiənin müvafiq sahələrinin əhəmiyyətli hissəsinə, xüsusilə də, beynəlxalq sülh və təhlükəsizliyə, ölkənin milli təhlükəsizlik məsələlərinə, insan hüquqlarına və fundamental azadlıqlarına təsir etməsi faktı ilə izah olunur. Bu baxımdan, terror, sərhədləri aşan cinayət kimi müəyyənləşdirilir, çünki o, beynəlxalq cəmiyyətin əsasını təşkil edən dəyərləri təhlükə altına alır.

Bu gün dünyada artan terrorizm tendensiyası əsasən Əl – Qaidə, İraq və Suriya İslam Dövləti (ISIS), eləcə də, onlar ilə əlaqəli insanlar, qruplar, idarə və təşkilatlar kimi cinayət təşkilatlarının davamlı və çoxsaylı terror aktlarına görədir. Onlar günahsız insanları öldürmək, başqalarına əzab vermək, əmlaka ziyan vurmaq və ən əsası sabitliyi pozmaq üçün bütün əməlləri törədirlər.[2]

Yeni informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə terrorizmin əhatə dairəsini artırır və ciddi itkilərə səbəb olur. Xüsusilə də, döyüşçüləri və personalı işə götürmək, terror əməlləri törətmək və bu hərəkətləri maliyyələşdirmək, planlaşdırmaq və hazırlamaq üçün terror təşkilatları tərəfindən tez – tez internetdən istifadə edilir. Bundan əlavə, cinayətin törədilməsində bir alət və ya vasitə kimi yeni texnoloji məhsullardan istifadə kiber məkan və terrorun təhlükəli yaxınlaşmasına gətirib çıxaran “kiber terrorizm” kimi yeni anlayışın meydana çıxması ilə nəticələnmişdir. Kiber terrorizm dövlət, təhlükəsizlik, enerji, nəqliyyat, həyat dəstəyi sistemləri və digər vacib sahələrin infrastrukturuna zərər vermək üçün kompüter şəbəkələrindən istifadə etməklə yerinə yetirilən hərəkətlər kimi təsvir oluna bilər.

---

[1] http://www.un.org/ru/documents/decl_conv/conventions/law_treaties.shtml

[2] Bax: BMT Təhlükəsizlik Şurasının 17 Dekabr 2015 – ci il tarixli 2253 saylı Qətnaməsi https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N15/437/48/PDF/N1543748.pdf?OpenElement

Terrorizmin beynəlxalq cinayət hüququnda Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsinin 5 – ci Maddəsində təsbit olunan soyqırım, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və hücum cinayətləri kimi "ən ağır cinayətlər" arasında qeyd olunmamasına baxmayaraq, atılmalı ilk addım terror aktlarının cəzasız qalmamasını və terror cinayətlərinin effektiv təqibinin yalnız milli və beynəlxalq səviyyədə görülməli tədbirlər və yaxın beynəlxalq əməkdaşlıq çərçivəsində yerinə yetirilməli fəaliyyətlər ilə mümkün olduğunu təmin etməkdir.
Terrorizmdə olduğu kimi, beynəlxalq səviyyədə terror ilə mübarizə tarixçəsi uzaq keçmişə təsadüf edir. Bu baxımdan, biz, terrorçuların təqibi üçün beynəlxalq səviyyədə terrorçuları cəzalandırmaq səlahiyyəti ilə təmin edilmiş təşkilatların yaradılması və terrorizm anlayışının izah edilməsində 1930 – cu illərdə Millətlər Liqası tərəfindən edilən cəhdləri ifadə edə bilərik. Bu kontekstdə Millətlər Liqası iki konvensiya qəbul etmişdir: "Terrorizmin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya" və bu Konvensiya ilə müəyyənləşdirilən cinayətlərin törədicilərinin təqibi üçün zəruri səlahiyyətlər ilə təchiz edilən "Beynəlxalq Cinayət Məhkəməsinin Yaradılması haqqında Konvensiya". Lakin bu iki müqavilə qüvvəyə minməmişdir, çünki yetərli imza toplanmamışdır.
Milli səviyyədə terrorizmə qarşı mübarizə mexanizmlərinin qeyri- adi müxtəlifliyi mövcuddur və o, ölkədən ölkəyə dəyişir. Lakin terrorçuluğa qarşı mübarizə haqqında qanunvericilik üzrə əhəmiyyətli fərqlər, beynəlxalq anti – terrorizm normalarının izahında milli səviyyədə müxtəlif yanaşmalar, sərhədlərarası cinayətlərə qarşı mübarizədə fundamental hüquq və azadlıqların qorunması ilə maraqları balanslaşdırmaq üçün ən yaxşı yolun tapılmasında razılığın olmaması terror əməllərinin kordinasiya olunmuş şəkildə aradan qaldırılmasının qarşısını alan amillərdir. Bu baxımdan, terrorizmə qarşı mübarizədə ən yeni təcrübə və ümumi olaraq qəbul edilən beynəlxalq normalar əsasında TURKPA Üzv Dövlətlərinin terrorizmə qarşı mübarizə haqqında qanunvericiliyə dair birgə mövqeyinin hazırlanması və qəbulu terror əməllərinin qarşısının alınması mexanizmlərinin işlənib hazırlanmasında vacib addımdır. Bundan əlavə, birgə mövqeyinin milli qanunların işlənib hazırlanması üçün model kimi istifadə edilə bilər.

## III. Terror anlayışının izahı

***Rəylər:***

Terror anlayışına dair razılığa nail olunması müasir beynəlxalq cinayət hüququnun ən vacib və eyni zamanda, ən çətin problemlərindən biridir. "Terror" anlayışı ilk dəfə 1930 – cu ildə Brüsseldə keçirilən Cəza Hüququnun Unifikasiyasına dair Üçüncü Beynəlxalq Konfransda istifadə edilmiş və "ümumi təhlükə yaratmağa qadir olan hər hansı nəqliyyat vasitəsindən istifadə" terror aktı kimi müəyyənləşdirilir.
Müxtəlif sahələrdə terrorizmə qarşı mübarizənin aparılması üçün BMT – nin və digər regional və beynəlxalq təşkilatların (Avropa Birliyi, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Amerika Ştatları Təşkilatı, Afrika Birliyi Təşkilatı, Ərəb Liqası) ən yüksək səviyyələrində qəbul edilən bir sıra konvensiyaların olmasına baxmayaraq, terrorizm anlayışının ümumilikdə beynəlxalq ictimaiyyət tərəfindən ümumi olaraq qəbul edilən ümumi tərifi / izahı hələ yoxdur. Lakin terrorun ümumi tərifinin yaradılması və qəbulu, o cümlədən ümumi olaraq qəbul edilmiş "actus reus və mens rea" onun milli cinayət hüququna uyğunlaşdırıla biləcək effektiv model kimi istifadəsinə imkan verir. Beləliklə, müxtəlif hüquqi sistemlərdə fərqli olan, terrorun hüquqi tərifinə dair standart (ümumi) və ya yaxın mövqeyini müəyyənləşdirilə bilər. Bu həmçinin xüsusilə ekstradisiya və qarşılıqlı hüquqi yardım sahəsində terrorizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlığı təşviq edir.
İlk növbədə, terrorizmin transmilli cinayət hesab olunduğunu və onun soyqırım, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və təcavüz cinayətləri kimi "əsas cinayətlər" kimi məlum olan cinayətlər ilə eyni kateqoriyada olduğunu nəzərə almaq zəruridir. Bu dörd cinayətin törədicilərini təqib etmək və məsuliyyətliliyi təmin etmək üçün 16 – 17 İyun, 1998 – ci ildə keçirilən Roma Diplomatik Konfransında Beynəlxalq Cinayət Məhkəməsi (UCD) yaradılmış və o, öz fəaliyyətinə nizamnaməsinin rəsmi olaraq qəbulundan sonra 1 İyun, 2002 – ci il tarixində başlamışdır.[3] Roma Nizamnaməsinə əsasən, beynəlxalq terrorizmdənsə, soyqırım, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və təcavüzkarlıq cinayətlərinin ümumi olaraq qəbul edilmiş tərifləri var və bu təriflər / izahlar UCD üzv dövlətlərinin milli qanunlarına uyğunlaşdırılır.[4]

---

[3] 124 ölkə 1 Sentyabr, 2016 – cı il tarixli Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsinin Dövlət tərəfləridir.

[4] Bax: İnsan cinayətləri və insanlığa qarşı cinayətlər haqqında Qanun (Kanada, 2000), Beynəlxalq cinayətlər və cinayət məhkəməsi haqqında Qanun (Yeni Zelandiya, 2000), Beynəlxalq cinayət məhkəməsi haqqında qanun (Birləşmiş Krallıq, 2001), Beynəlxalq

Beynəlxalq "əsas cinayətlər" dən başqa, terrorizmin izahına və ya tərifinə dair hələ də ortaq fikir mövcud deyil. Lakin beynəlxalq ictimaiyyət tərəfindən transmilli cinayətə qarşı mübarizəni gücləndirmək üçün keçmişdə ayrı – ayrı cinayət öhdəliyi ilə əlaqəli terrorizmin izahını və tərifini müəyyənləşdirmək üçün cəhdlər edilmişdir. Terrorun müqavilə - hüquqi izahını formalaşdırmaq üçün ilk cəhd 26 Oktyabr, 1934 – cü ildə Marselin sui – qəsdindən (Yuqoslaviya Kralı Aleksandırın və Fransa Xarici İşlər Naziri Barthou - nun qətli) sonra 1937 – ci ildə Cenevrədə edilmiş və Terrorizmin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya Millətlər Liqası tərəfindən qəbul edilmişdir. Bu Konvensiya 24 ölkə tərəfindən imzalanmışdır.[5] Lakin yalnız Hindistan bu sənədi təsdiqləmişdir və o qüvvəyə minməmişdir, çünki sonrakı prosesdə tələb olunan təsdiq sayına nail olunmamışdır. Lakin qeyd etmək lazımdır ki, bu Konvensiya terrorizmə qarşı mübarizədə ilk çoxtərəfli hüquqi alətdir. Əlli ildən artıq vaxt sonra 1996 – cı ildə Hindistan BMT – yə Beynəlxalq Terrorizm haqqında Hərtərəfli Konvensiya Layihəsini təklif etmiş və ayrı – ayrı cinayət məsuliyyətinə əsasən terrorizm cinayətini izah etməyə cəhd edilmişdir.[6] Bu Konvensiya layihəsi üzərində iş ABŞ – da 2001 – ci il terror hücumundan sonra canlandı və hal – hazırda BMT – nin müvafiq qurumlarında araşdırılır.

Beynəlxalq Terrorizmə dair Hərtərəfli Konvensiyanın 2 – ci Maddəsinə əsasən, bu Konvensiyanın məzmunu baxımından, "bu Konvensiyanın mənası çərçivəsində o şəxs cinayət əməli törətmiş hesab olunur ki, o, istənilən vasitə ilə qanunsuz olaraq və bilərəkdən aşağıdakılara səbəb olsun: (a) Hər hansı şəxsin ölüm və ya ciddi bədən xəsarəti və ya (b) Dövlət və ya özəl əmlaka, o cümlədən ümumi istifadədə olan yerə, Dövlət və ya hökümət obyektinə, ictimai nəqliyyat sisteminə, infrastruktur obyektinə və ya ətraf mühitə dəyən ciddi zərər və ya (c) bu maddənin 1 (b) bəndində qeyd olunan əmlak, yer, obyekt və ya sistemlərə dəyən, əsaslı iqtisadi itki ilə nəticələnən və ya nəticələnməsi gözlənilən zərər.

Terrorizmin ümumi olaraq qəbul edilmiş izahı və tərifinin olmaması terror cinayətinin Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasından nə üçün kənarda olmasının əsas səbəblərindən biridir. Xüsusilə, Türkiyə, Hindistan, Rusiya, Qırğızıstan, Xüsusilə, Qırğızıstan, Əlcəzair, Tacikistan, Makedoniya və Şri Lanka terrorizmin Beynəlxalq Cinayət Məhkəməsi tərəfindən təqib edilən cinayətlərin siyahısına daxil edilməsini təmin etmək üçün Romada keçirilən Diplomatik Konfransda müəyyən cəhdlər edilmişdir. Lakin təklif qəbul edilməmişdir, çünki terrorizmin ümumi olaraq qəbul edilən izahının və tərifinin olmaması və ölkələrn terror probleminə çoxsəviyyəli yanaşması yenicə yaradılan beynəlxalq məhkəmənin səlahiyyətlərinə dair müzakirələri daha da artıracaqdır. Lakin insanlığa qarşı cinayətlərin əhatə dairəsi çərçivəsində terrorizmin qiymətləndirilməsi və təqibi ilə əlaqəli Türkiyə, Hindistan və Şri Lanka tərəfindən təklif irəli sürülmüş, lakin o, digər nümayəndələr tərəfindən qəbul edilməmişdir.[7] Bundan əlavə, səsverməyə qoyulan və Roma Konfrasında qəbul edilən Barışıq paketinin E siyahı yarım – bəndində terrorizm və narkotik maddə ticarətinin qəbul edilən izahı və tərifinin yoxlanılması və müəyyənləşdirilməsi üçün təklif irəli sürülmüş və Roma Əsasnaməsinin Tərəflərinin Konfransında Beynəlxalq Cinayət Məhkəməsinin cinayətlərinin siyahısına daxil edilmişdir.[8] Lakin terrorizmin Roma Əsasnaməsinə əlavə edilməsi Niderlandın tələbinə baxmayaraq 2010 – cu ilin İyun ayında Kampalada (Uqanda) keçirilən Roma Əsasnaməsinin İlk Təhlil Konfransının gündəliyinə daxil edilməmişdir.[9] Mövzuya dair əlavə rəy kimi, qanun pozuntusu cinayətinin ümumi tərifi verilməsə də, Əsasnamənin 121 və 123 – cü Maddələrinə əsasən hazırlanan qərarnaməyə qanun pozuntusu cinayətinin tərifi və Beynəlxalq Cinayət Məhkəməsi tərəfindən qəbul şərtlərinə dair bu cinayət ilə əlaqəli Məhkəmə

---

hüquqa qarşı cinayətlər haqqında qanun (Almaniya, 2002), Beynəlxalq Cinayət Məhkəməsi Aktı (Avstraliya, 2002), Beynəlxalq Cinayət Məhkəməsi Aktı (Cənubi Afrika Respublikası, 2002), Beynəlxalq Cinayətlər (Transmilli) haqqında Akt (Niderland Krallığı, 2003) və başqaları.

[5] Konvensiyanı qəbul etmiş Avropa ölkələri: Albaniya, Belçika, Bolqarıstan, Yunanıstan, Çexiya, Slovakiya, Fransa, Monako, Hollandiya, Norveç, SSRİ, Rumıniya, İspaniya, Yuqoslaviya, Estoniya. Konvensiyanı qəbul etmiş digər ölkələr: Argentina, Kuba, Dominikan Respublikası, Ekvador, Haiti, Peru, Venesuela, Türkiyə, Hindistan və Misir.

[6] Beynəlxalq Terrorizmin aradan qaldırılması tədbirləri. İşçi Qrupun hesabatı. BMT Sənədi A/C6/55. L2. 19 Oktyabr, 2000 – ci il. Əlavə II.

[7] '5 – ci maddə ilə əlaqəli Hindistan, Şri Lanka və Türkiyə təklifi', BMT Sənədi A/CONF.183/ C. 1/L.27/Rev.1

[8] BMT Sənədi A/CONF. 183/10.

[9] Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsinin Dövlət Tərəflərinin Yığıncağı, 8 – ci sessiya, Əlavə II 40-51, I.C.C. Doc. ICC-ASP/8/20 (18 – 26 Noyabr, 2009)

səlahiyyətlərindən istifadə şərtləri daxildir. Bu əsasnamə BMT Nizamnaməsinin müvafiq qaydalarına uyğundur. Bu cür metod faktiki olaraq terrorizmə tətbiq olunmuşdur, lakin bu məsələ Roma Nizamnaməsinin ölkələri tərəfindən dəstəklənməmişdir.

Belə ki, terrorizmin ümumi izahı və tərifi hələ verilməsə də, yerli hüquqi sistemlərdə bu cinayətin müxtəlif izahları mövcuddur. Məs., Ərəb Liqasının Anti – Terrorizm Konvensiyasında (1998), Afrika Birliyinin Terrorizmin Qarşısının alınması və Terrorizmə qarşı Mübarizə haqqında Konvensiya (1999), Müstəqil Dövlətlər Birliyinin Terrorizm ilə Mübarizə üzrə Əməkdaşlığına dair 4 İyun, 1999 – cu il tarixli Konvensiyası, İslam Əməkdaşlıq Təşkilatının 1 İyul, 1999 – cu il tarixli Konvensiyası, Separatizm və Ekstremizm ilə Mübarizəyə dair Şanqay Konvensiyası (2001), Avropa Şurasının 13 İyul, 2002 – ci il tarixli Terrorizm ilə Mübarizə haqqında Konvensiyası, Amerika Ştatları Təşkilatının Terrorizm ilə Mübarizə haqqında Konvensiyası (2002) və Körfəz Əməkdaşlıq Şurasının Terrorizm ilə Mübarizə haqqında Konvensiyasında (2004) da bu cür tərif verilir.

Terror aktlarının bir çox təriflərindən BMT tərəfindən qəbul edilən bir sıra sektoral konvensiyalarda müəyyən beynəlxalq hüquqi sənədlərdə istifadə edilmişdir. Xüsusilə də, 14 Dekabr, 1973 – cü il tarixli "Diplomatik Agentlər də daxil olmaqla, Beynəlxalq səviyyədə qorunan Şəxslərə qarşı Cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya", 17 Dekabr, 1979 – cu il tarixli "Adamların girov götürülməsinə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiya", 15 Dekabr, 1997 – ci il tarixli Terrorist Bombalamasının Qarşısının Alınması haqqında Beynəlxalq Konvensiya və 13 Aprel, 2005 – ci il tarixində qəbul edilən Nüvə Terrorunun Qarşısının alınması haqqında Beynəlxalq Konvensiya və digər mətnlərdəki müvafiq anlayışlar nümunə kimi verilə bilər.

Bundan əlavə, biz, beynəlxalq məhkəmələrin rəylərindən terrorizm anlayışını izah etmək üçün edilən cəhdləri görə bilirik. Məs., 18 İyul, 2012 – ci il tarixində Livan Xüsusi Məhkəməsi Apellyasiya Palatası 16 Fevral, 2011 – ci il tarixli apelyasiya şikayəti üçün Apelyasiya Məhkəməsinin ərizəsini rədd etmiş və ilk dəfə olaraq, beynəlxalq hüquqda terror cinayətinin izahına dair bəyanat vermişdir. Məhkəmə terror cinayətini Livan milli qanunlarına əsasən izah etmiş və qeyd etmişdir ki, beynəlxalq hüququn adi normaları sülh zamanı formalaşdırılmışdır. Bu cinayətin elementləri aşağıdakılardır: a) cinayət əməli (məs. adam öldürmə, adam oğurluğu, adamların girov götürülməsi və s.); b) ümumi ictimaiyyət arasında qorxu və çaxnaşma yaratmaq məqsədi və ya birbaşa və yaxud dolayı olaraq zorla milli və ya beynəlxalq təşkilatların müəyyən hərəkətləri yerinə yetirməyə və ya yetirməməyə məcbur edilməsi; c) transmilli cinayət.[10]

Cinayət məsuliyyətinin məqsədləri üçün terrorizm anlayışının izahı Azərbaycan[11], Qazaxıstan[12], Qırğızıstan[13] və Türkiyənin[14] milli cinayət qanunlarında, eləcə də, bu ölkələrin terrorizm ilə mübarizə haqqında xüsusi qanunlarında mövvuddur.

Əksər beynəlxalq regional konvensiyalarda BMT sektoral konvensiyalarında, milli qanunvericilik və presedent hüququnda terrorizm anlayışının müxtəlif izahlarının analizi nəticəsində belə nəticəyə gəlinir ki, terrorizmin ümumi izahına ən aşağı müzakirə səviyyəsinə gətirib çıxara biləcək, bu cinayətin əsas obyektiv və subyektiv komponentləri daxil edilməlidir. Bu gün beynəlxalq ictimaiyyətdə bu iki komponentin əlaqələri baxımından "terrorizm" hüquqi anlayışının istifadəsinə dair fikir birliyi mövcuddur.

Terrorizmin obyektiv tərəfi müxtəlif faktlar ilə ortaya çıxır və buraya təbii obyektlər və mədəni irsin məhvinə və ya zədələnməsinə səbəb olan müxtəlif cinayət aktları, o cümlədən zorakılıq, ölüm və ya sağlamlığa ciddi zərər vurulması və yaxud müxtəlif infrastruktur sistemlərinin zədələnməsi daxildir. Bu cür hərəkət və əməllər nəticəsində idarəetmə sistemlərinin fəaliyyətləri kəskin şəkildə nəzarətdən çıxa bilər, həyat dəstək sistemlərinin fəaliyyətlərinə son verilə və süni fəlakətlər və oxşar hadisələr baş verə bilər. Bütün hallarda, cinayətin obyektiv tərəfini əks etdirən, cinayətin ən mühüm aspekti ona uyğun davranışı əks etdirir və bilərəkdən ciddi bədən xəsarəti, uşaq oğurlaması, adamların girov götürülməsi, hava və dəniz nəqliyyat vasitələrinin oğurlanması kimi milli qanuna əsasən cinayət əməli kimi çıxış edir. Terrorizmin obyektiv

---

[10] Lebanon üçün BMT Xüsusi Məhkəməsi (Apelyasiya palatası). Tətbiq olunan qanuna dair əlaqələndirici qərar: Terrorizm, Qəsb, Qətl, cinayətin törədilməsi, məcmu yüklülük. STL-11-01/1, 16 Fevral, 2011. Para. 85// http:// www.stl-tsl.org

[11] "Terrorizmə qarşı mübarizə haqqında qanun" (18.07.1999, maddə 1)

[12] "Terrorizmin qarşısının alınması haqqında qanun" (13.07.1999, maddə 1)

[13] "Terrorizmin qarşısının alınması haqqında qanun" (08.11.2006, maddə 1)

[14] "Terrorizmə qarşı mübarizə haqqında qanun" no. 3713 (12.04.1991, maddə 1)

tərəfinin ən ziddiyyətli komponenti terror aktının həyata keçirilməsi üçün zorakılıqdan istifadədir. Bu kontekstdə zorakılıq anlayışı terrorizmin anlayışının izahlarında cinayətin maddi elementləri (actus reus) kimi müxtəlif formalarda çıxış edir, buraya isə həm beynəlxalq hüquqi alətlər, həm də milli qanunvericilik daxildir. Terrorizmin subyektiv tərəfi isə mürəkkəb olduğu üçün biraz fərqlidir və buraya ümumi subyektiv komponent kimi üəsdçilik, eləcə də, ictimaiyyətə hədə - qorxu gəlmək, ümumi ictimaiyyət arasında qorxu və təşviş yaratmaq, ictimai təşkilatları və ya beynəlxalq təşkilatları müəyyən hərəkətləri etməyə və ya birbaşa və yaxud dolayı olaraq bunları etməkdən yayınmağa məcbur etmək daxildir.
Terrorizm cinayətinin izahı yuxarıda qeyd olunanları nəzərə alaraq ortaq mövqeyinin əldə olunması üçün aşağıdakı kimi təklif olunur:

**Maddə … Terror aktının izahı**

1. Terror aktı ictimaiyyət arasında qorxu və çaxnaşma yaratmaq və ya hökümət və yaxud beynəlxalq təşkilatı insan həyatının və sağlamlığının qorunub saxlanılması və təhlükəsizliyinə, ictimai təhlükəsizliyə, özəl, dövlət və icma əmlakına və ya dövlət müəssisələrinə, nəqliyyat, kommunikasiya və kommunikasiya infrastrukturu sistemlərinə zərər vuran və ya zərər vurmaq üçün ciddi təhlükə törədən hər hansı hərəkət və cinayət aktını törətməyə və ya hər hansı hərəkəti yerinə yetirməkdən çəkinməyə vadar etmək üçün qəsdən törədilmiş hərəkətdir.
2. Yuxarıda qeyd olunan əməl və ya hərəkətləri tamamilə və ya qismən törətmiş hər hansı şəxs cinayət əməli törətmiş hesab olunur və ya iştirakçı kimi cəzalandırılır.

## IV. Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə

***Rəylər:***

Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə regional və beynəlxalq səviyyədə fəaliyyət göstərən transmilli cinayət kimi müəyyənləşdirilən, terrorizm üçün kordinasiya olunmuş əks – tədbir mexanizminin əsas komponentidir. Qeyd olunur ki, terrorizmin maliyyələşdirilməsi ilə mübarizə və tərəflərin beynəlxalq standartları əsasında məcmu profilaktik tədbirlər 2008 – ci ilin Sentyabr ayında yekdilliklə qəbul edilmiş BMT Anti – Terror Qlobal Strategiyasında (UNSCRC 60 / 288) kritik əhəmiyyət kəsb edir. Lakin çirkli pulların yuyulmasına qarşı mübarizə haqqında Çirkli Pulların Yuyulmasının qarşısının alınması ilə bağlı Maliyyə Tədbirləri Üzrə İşçi Qrupunun (FATF) 40 tövsiyyəsinə və terrorizmin maliyyələşdirilməsi, çirkli pulların yuyulması və kütləvi qırğın silahlarının paylanması ilə mübarizə haqqında 9 xüsusi tövsiyyəyə əsaslanan məcmu beynəlxalq standartlardan istifadə ilə əlaqəli tövsiyyələr verilmişdir.[15]
FATF Tövsiyyələri ilk dəfə narkotik vasitələrin satışından əldə edilən çirkli pulları yuyan insanlar tərəfindən maliyyə sistemindən sui – istifadəyə qarşı mübarizə aparmaq üçün 1990 – cı ildə hazırlanmışdır. Tövsiyyələrə çirkli pulların yuyulması mexanizmləri və tipologiyaları üzrə prosesləri nəzərə alaraq ilk dəfə 1996 – cı ildə yenidən baxılmışdır. 2001 – ci ildə FATF – ın terrorizmin maliyyələşdirilməsi məsələsi ilə bağlı səlahiyyətləri artırılmış və terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında səkkiz Xüsusi Tövsiyyə, 2004 – cü ildə isə doqquzuncu tövsiyyə hazırlanmışdır. Bu Tövsiyyələr çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizə aparan 180 ölkədə beynəlxalq standart kimi tanınmış və qəbul edilmişdir. FATF – ın çirkli pulların yuyulmasına qarşı mübarizə haqqında 40 tövsiyyəsi və terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında 9 Xüsusi Tövsiyyəsi BMT Təhlükəsizlik Şurasının 1627 (2005) saylı qətnaməsinin və BMT Baş Assambleyasının 60/288 (2006) saylı Terrorizmə Qarşı Mübarizə Fəaliyyət

---

[15] FATF (Maliyyə Tədbirləri üzrə İşçi Qrupu) – G – 7 ölkələri (ABŞ, Yaponiya, Almaniya, Fransa, İngiltərə, İtaliya və Kanada) tərəfindən 1989 – cu ildə çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə aparmaq, digər hədələyici tədbirlərə qarşı çoxtərəfli mübarizənin prinsiplərini, eləcə də, beynəlxalq maliyyə sisteminin tamlığını müəyyənləşdirmək, bu prinsipləri təşkil etmək, bu məsələyə dair standartları işləyib hazırlamaq və ölkələr arasındakı əməkdaşlığı müəyyənləşdirmək üçün yaradılan beynəlxalq təşkilatdır. Parisdə keçirilən illik iqtisadi sammit yığıncağında yalnız ölkənin mübarizəsi ilə qarşısı alına bilməyən və öz funksiyalarına görə qlobal səviyyədə fəaliyyət göstərəcək olan, çirkli pulların yuyulması miqyası ilə Maliyyə Tədbirləri üzrə İşçi Qrupunu (FATF) yaratmağı qərara almışdır. FATF, 35 dövlət və 2 institut olmaqla, ümumilikdə 37 üzvə malikdir. Bundan əlavə, 20 təşkilat və bir ölkənin olduğu 21 müşahidəçi var. (Bax: Terrorizmə qarşı Mübarizədə konsolidasiya olunmuş FATF Strategiyası// http://www.fatf-gafi.org/media/fatf/documents/reports/FATF-Terrorist-Financing-Strategy.pdf)

Planının əsas komponentləri kimi qəbul edilmişdir. 40 + 9 Tövsiyyə milli səviyyədə çirkli puulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı effektiv mübarizə üçün təklif olunan məcmu tədbirlərdir.[16]

FATF Tövsiyyələri çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə, eləcə də, kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə aparmaq üçün ölkələrin istifadə etməli olduğu hərtərəfli və ardıcıl tədbirlər toplusunu müəyyənləşdirir. Ölkələr müxtəlif məhkəmə, inzibati və funksional strukturlara və maliyyə sistemlərinə malikdir, buna görə də, onlar bu cinayətlər ilə mübarizə aparmaq üçün oxşar tədbirlərdən istifadə edə bilməzlər. Belə ki, ölkələr beynəlxalq standartları özündə əks etdirən FATF tövsiyyələrini xüsusi vəziyyət və situasiyaya uyğunlaşdırmalıdır. Tövsiyyələr ölkə daxilində qəbul edilməlidir: risklərin müəyyən edilməsi, siyasətlərin müəyyənləşdirilməsi və kordinasiyanın təmin edilməsi; çirkli pulların yuyulmasına, terrorizmin maliyyələşdirilməsinə və kütləvi qırğın silahlarının yayılmasına nəzarət; maliyyə və digər müəyyənləşdirilmiş sektorlar ilə əlaqəli profilaktik tədbirlərin görülməsi; müvafiq orqanların səlahiyyət və məsuliyyətlərinin tənzimlənməsi (məs. siyasət və təqib) və digər institusional tədbirlər; şəffaflığın artırılması və hüquqi şəxslərin və təşkilatların bank qeydləri [17] haqqında vaxtı – vaxtında məlumatların verilməsi; beynəlxalq əməkdaşlıq üçün tədbirlər.[18]

1999 – cu ildə BMT tərəfindən qəbul edilən və 187 ölkə tərəfindən imzalanan Terrorizmin Maliyyələşdirilməsinin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya terrorla mübarizə ilə əlaqəli universal beynəlxalq – hüquqi öhdəliklərin əsasını təşkil edir .[19] Avropa Şurası üzv dövlətləri üçün çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizəyə dair beynəlxalq öhdəliklərin digər əsasları 16 May, 2005 – ci il tarixli “Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında" Avropa Şurası Konvensiyasıdır.[20] Çirkli pulların yuyulmasına qarşı mübarizə ilə əlaqəli digər mətn 2000 – ci ildə qəbul edilən “Transmilli Mütəşəkkil Cinayətə qarşı BMT Konvensiyasıdır” .[21] Bu Konvensiyanın müqəddiməsində qeyd olunur ki, transmilli mütəşəkkil cinayət və terrorizm şübhəsiz ki bir – biri ilə əlaqəlidir; beynəlxalq səviyyədə geniş miqyaslı cinayətdən əldə edilən gəlirlərin yuyulmasını həyata keçirməklə, “transmilli mütəşəkkil cinayət və terrorizm arasında genişlənən əlaqə” də vurğulanır [22]. 28 Sentyabr, 2001 – ci il tarixli qərarında BMT Təhlükəsizlik Şurası (UNSC), beynəlxalq terrorizm və beynəlxalq mütəşəkkil cinayət, narkotik vasitələrin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması, silah qaçaqmalçılığı və nüvə, kimyəvi, bioloji və dərin narahatlıq ilə ölümcül təhlükələrin qanunsuz ötürülməsi arasındakı yaxın əlaqələri qeyd edərək, bu ağır problemləmə qarşı

---

[16] Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə: BMT – nin Terrorizmə qarşı Mübarizə üzrə Tapşırıq Qrupunun (CTITF) işçi Qrupu Hesabatı. Nyu York, 2009, səh.5

[17] Bax: Şəffaflıq və benefisiar mülkiyyətə dair təlimat (Tövsiyyələr: 24 və 25). FATF tövsiyyələri // http://www.eurasiangroup.org/files/FATF_docs/Rukovodstvo_FATF_Prozrachnost_i_BS.pdf

[18] Çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə və yayılmasına qarşı mübarizə üzrə beynəlxalq standartlar (FATF Tövsiyyəsi) http://www.fatf-gafi.org/media/fatf/documents/recommendations/pdfs/FATF_Recommendations.pdf

[19] Azərbaycan Konvensiyanı 26 Oktyabr, 2001 – ci il, Qazaxıstan 24 Fevral, 2004 – cü il, Qırğızıstan 2 Oktyabr, 2003 – cü il, Türkiyə 28 İyun, 2002 – ci il tarixində təsdiq etmişdir. (Mənbə: BMT – nin Müqavilə Topluları https://treaties.un.org/pages/ViewDetails.aspx?src=TREATY&mtdsg_no=XVIII-11&chapter=18&lang=en)

[20] Türkiyə Konvensiyanı 2 May, 2016 – cı il tarixində təsdiq etmişdir (Mənbə: Avropa Şurasının Müqavilələr Bürosu // http://www.coe.int/ru/web/conventions/home/-/conventions/treaty/198/signatures?p_auth=pzZI6qnY)

[21] Azərbaycan Konvensiyanı 30 Oktyabr, 2003 – cü il, Qazaxıstan 31 İyul, 2008 -ci il, Qırğızıstan 2 Oktyabr, 2003 – cü il, Türkiyə 25 Mart, 2003 -cü il tarixində təsdiq etmişdir. (Mənbə: BMT – nin Müqavilə Topluları //https://treaties.un.org/pages/ViewDetails.aspx?src=TREATY&mtdsg_no=XVIII-12&chapter=18&lang=en)

22 Transmilli mütəşəkkil cinayətə qarşı BMT – nin Konvensiyası, 2000 https://www.unodc.org/documents/russia//Reports/TOCebook-r.pdf

əməliyyatı gücləndirmək və onun beynəlxalq təhlükəsizlik üçün doğurduğu ciddi təhlükələrin qarşısını almaq cəhdlərində əməkdaşlığın gücləndirilməsi ehtiyacını vurğulamışdır.[23]

UNSC, özünün 19 Dekabr, 2014 – cü il tarixli 2195 nömrəli qərarında vurğulamışdır ki, o, terroristlərin həmin cinayətlərdən, o cümlədən silah və narkotik alveri, qanunsuz alver və incəsənət əsərlərinin alveri, qanunsuz təbii resursların ticarəti, o cümlədən qızıl, digər qiymətli metallar və daşlar, minerallar, təbii resurslar, kömür və neft alveri, transmilli cinayət fəaliyyətləri, həmçinin təcavüz və digər cinayətlər, girovu geri alma məqsədləri üçün qəsb və bank soyğunçuluğundan faydalanması və gəlir əldə etməsindən ciddi şəkildə narahatdır. Lakin qeyd edilmişdir ki, ədalətli və effektiv cinayət ədalət sistemlərinin yaradılması və davam etdirilməsi terrorizm və transmilli cinayət ilə mübarizə üçün əsas strategiyalardan biri olmalıdır.[24]
UNSC, özünün 22 Dekabr, 2015 – ci il tarixli 2253 saylı qərarında terrorizmin maliyyələşdirilməsinin, xüsusi terror aktı ilə əlaqənin olmaması halında terror təşkilatlarının və ayrı – ayrı terrorçuların, o cümlədən mütəşəkkil cinayət gəlirlərinin, eyni zamanda narkotik vasitələrin və onların kimyəvi prekursorlarının qanunsuz istehsalı və alverinin qarşısının alınması üçün tədbirlərin görülməsi ehtiyacını vurğulamışdır.[25] Biz önəmli BMT sənədlərindəki bu cür bəyanatları terror qruplarının və ümumi cinayət təşkilatlarının cinayət aktlarından yarana biləcək potensial ciddi təhlükələrə işarə kimi başa düşə bilərik. Terroristlərin dolayı olaraq adi ümumi cinayətlərdə iştirak etməsinin ən azından iki yolu var. Birinci halda, digər maliyyə resursları olmadıqda, terroristlər şəxsi gəlir qazanmaq və bununka da özləri və real fəaliyyətləri üçün maliyyələşməni təmin etmək üçün bir sıra gəlirli cinayətlərdə iştirak edir. Sonuncu halda isə terror aktlarını həyata keçirmək üçün zəruri olan maddə və resursların bəzilərinə qanuni giriş marşrutları olmadıqda, terroristlər onları təmin etmək üçün müxtəlif cinayətlər törədir. İnsanların istismarının və ümumi cinayətlərin müxtəlif formaları, xüsusilə də, qanunsuz bazarlara giriş və onlardan istifadə adətən uğurlu terror aktlarının yerinə yetirilməsi üçün ilkin şərtlər kimi görünür[26]. Təxmin edilir ki, təbliğat aparmaqla və personalı işə götürməklə, terrorçular yetişdirməklə və təlimatlandırmaqla və maddi ödənişlər və sosial dəstəyi təmin etməklə, terror aktlarını törətmək üçün əhəmiyyətli miqdarda maliyyə resurslarından istifadə edilmişdir.
Terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə beynəlxalq hüquqi mexanizmində milli qanun alətləri aşağıdakılardır: 1) 10 Fevral, 2009 – cu il tarixli “Çirkli Pulların Yuyulması və Terrorizmin Maliyyələşdirilməsinə qarşı Mübarizə” haqqında Azərbaycan Respublikasının Qanunu, 2) 28 Avqust, 2009 – cu il tarixli “Qanunsuz Gəlirlərin Yuyulmasına və Terrorizmin Maliyyələşdirilməsinə qarşı Mübarizə” haqqında Qazaxıstan Respublikasının Qanunu; 3) 31 İyul, 2006 – cı il tarixli “Cinayət gəlirlərinin yuyulması və Terrorizm və Ekstremist Fəaliyyətlərin Maliyyələşdirilməsinə qarşı Mübarizə” haqqında Qırğızıstan Respublikasının Qanunu; 7 Fevral, 2013 – cü il tarixli “Terrorizmin Maliyyələşdirilməsinin Qarşısının Alınması” haqqında Türkiyə Respublikasının Qanunu. 27 Həmçinin qeyd etmək lazımdır ki, terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə Terrorizmin Maliyyələşdirilməsinin Qarşısının Alınması haqqında Beynəlxalq Konvensiyada transmilli cinayət kimi müəyyənləşdirilir. Digər tərəfdən isə qeyd edilir ki, “bu Konvensiya cinayət tək bir Dövlətdə törədildikdə, iddia edilən cinayətkar həmin Dövlətin vətəndaşı olduqda və həmin Dövlətin ərazisində olduqda və heç bir digər Dövlətin 7 – ci maddənin 1 – ci paraqrafına və ya 7 – ci maddənin 2 – ci paraqrafına əsasən yurisdiksiya icra etmək üçün əsası olmadıqda tətbiq edilməyəcəkdir; burada yalnız müvafiq qaydada 12 – 18 – ci maddələrin müddəalarının həmin hallara tətbiq edilməsi halı istisnadır”.

---

[23] BMT Təhlükəsizlik Şurasının 28 Sentyabr, 2001 – ci il tarixli 4385 saylı Qətnaməsi // https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N01/557/45/PDF/N0155745.pdf?OpenElement
[24] BMT Təhlükəsizlik Şurasının 19 Dekabr, 2014 – cü il tarixli 7351 saylı Qətnaməsi https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N14/708/78/PDF/N1470878.pdf?OpenElement
[25] BMT Təhlükəsizlik Şurasının 17 Dekabr, 2015 – ci il tarixli 7587 saylı qətnaməsi https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N15/437/48/PDF/N1543748.pdf?OpenElement
26 Terrorizmə Cinayət Ədliyyəsinin Cavab reaksiyalarına dair kitabça. BMT, Nyu York, 2009. Səh 29.

27 Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Maddə 214, paraqraf 1, Qazaxıstan Respublikasının Cinayət Məcəlləsi, maddə 258, Qırğızıstan Respublikasının Cinayət Məcəlləsi, Maddə 226, paraqraf 1, Türkiyə Respublikasının Cinayət Məcəlləsi.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə ilə əlaqəli ortaq mövqe aşağıdakı kimi təklif olunur:

**Maddə … Terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə**

1. Terror aktlarını törədən və ya törətməyə cəhd edən və yaxud terror aktlarının törədilməsində iştirak edən və ya onların törədilməsini asanlaşdıran şəxslərin;birbaşa və ya dolayı olaraq həmin şəxslərin mülkiyyətində və ya nəzarətində olan qurumların terrorizmin maliyyələşdirilməsində istifadə edilən vəsaitləri[28] və ya digər aktivləri dondurulacaqdır;
2. Əgər hər hansı şəxs, hər hansı halda tamamilə və ya qismən qanunsuz olaraq və qəsdən onların terror aktlarının törədilməsində istifadə ediləcəyini və ya istifadə edilmək üçün nəzərdə tutulduğunu bilərək vəsaitləri təmin edərsə və ya toplayarsa, bu zaman o, birbaşa və ya dolayı olaraq cinayət əməli törədir. Əgər yerli qanunvericilik prinsiplərinə əsasən öz ölkəsində yaradılan və öz qanununa əsasən yaradılan hüquqi şəxsin idarəçiliyi və ya nəzarəti üçün cavabdehlik daşıyan şəxs, öz səlahiyyəti çərçivəsində, terrorizmin maliyyələşməsini təmin edərsə, bu zaman həmin hüquqi şəxsin cinayət məsuliyyəti də davam edir. Bu məsuliyyət cinayət, hüquqi və ya inzibati xarakterli ola bilər.

## V. “Ekstradisiya və ya təqib” öhdəliyi (*aut dedere aut judicare*)

***<u>Rəylər:</u>***

Cinayətkarların təhvil verilməsi və ya cinayət icraatlarının aparılması (aut dedere aut judicare – ekstradisiya və ya təqib) cinayət öhdəliyinin qaçılmaz edilməsi ilə terrorçuları cəzalandırmaq məqsədi daşıyır və bütövlükdə beynəlxalq ictimaiyyətin diqqətini cəlb edən anti – terrorizm mexanizminin əsas komponentlərindən birinə çevrilmişdir.

Konqo Demokratik Respublikası v. Belçika[29] işində hakimlərin (R. Higgins, P. Kooijmans və T. Buergenthal) ilə “ağır cinayətlərin törədicilərinin cəzasız qalması” ideyası ilə bağlı fikir birliyi çevik olmuş və yenicə yaradılmış beynəlxalq hərbi cinayət məhkəmələri, müqavilələ sanksiyalar və milli məhkəmələr öz fəaliyyətlərini bu çərçivədə davam etdirirlər.[30] Digər oxşar öhdəliklər arasında “*aut dede aut judicare*” (ekstradisiya və ya təqib) vacibdir, çünki o, transmilli və ən ağır beynəlxalq cinayətlər ilə bağlıdır.

“Aut dedée aut judicare” (ekstradisiya və ya təqib) öhdəliyinin əsas məqsədi günahkarın olduğu və ya cinayət icraatının başladılmadığı ölkə tərəfindən qaytarılmadığı hallarda, cinayətkarın cəzasız qalmamasıdır. Bu

---

[28] Vəsaitlər dedikdə, maddi və ya qeyri – maddi, daşınar və ya daşınmaz olmasından asılı olmayaraq, lakin əldə olunan istənilən növdə olan aktiv və həmin aktivlərə dair mülkiyyət hüququ və ya maraqları sübuta yetirən hüquqi sənədlər və ya istənilən formada olan alətlər, o cümlədən elektron və ya rəqəmsal sənədlər, eləcə də, bank kreditləri, səyahətçilərin çekləri, bank çekləri, pul baratı, səhmlər, qiymətli kağızlar. İstiqrazlar, draftlar, akreditivlər nəzərdə tutulur (Terrorizmin Maliyyələşdirilməsinin qarşısının alınması haqqında Beynəlxalq Konvensiya, Maddə 1, Paraqraf 1).

[29] Bu işə dair ətraflı məlumat üçün bax: *Henzelin M.* La Compétence Pénale Universelle : Une Question Non Résolue Par L’Arret Yerodia// Universelle Revue Générale de Droit International Public. 2002. N 4. P. 819-854; *Boister N.* Belçika Həbs qərarında ICJ: Beynəlxalq Cinayət Hüququnun İşlənib Hazırlanması // Konflikt və Təhlükəsizlik Hüququ Jurnalı. 2002. Cild 7. N. 2. Səh. 293 – 314; *Zuppi A-L.* Universal Yurisdiksiyaya qarşı Toxunulmazlıq: Beynəlxalq Ədalət Məhkəməsinin Yerodia Ndombasi Qərarı / Louisiana Hüquq Təhlili. 2003. Cild 63. Səh. 309 – 320; Wickremasinghe C. 11 Aprel, 2000 – ci il tarixli Həbs Qərarı (Konqo Demokratik Respublikası Belçikaya qarşı), İlkin etirazlar və mahiyyət, 14 Fevral, 2002 – ci il tarixli qərar // Beynəlxalq və Müqayisəli Hüquq. Rüblük. 2003. Cild 52, No. 3, səh. 775 – 781; Belson A. Konqo Demokratik Respublikası Belçikaya qarşı: Xarici Dövlətlərdə Cinayət Təqibindən Xarici Nazirlərin Toxunulmazlığının Beynəlxalq Məhkəmə tərəfindən nəzərdən keçirilməsi / Nyu York Hüquq Məktəbi, İnsan Hüquqları Jurnalı. 2003. Cild 19, N.3, Səh. 859 – 868; *Winants A. Beynəlxalq Ədalət Məhkəməsinin Yerodia Qərarı və* Universal Yurisdiksiyaya dair 1993/1999 saylı Belçika Qanunu // Leiden Beynəlxalq Hüquq Jurnalı. 2003. Cild 16. No. 3. Səh. 491 – 509; *Meziyaev A. B.* Həbs qərarı ilə bağlı iş (Konqo Demokratik Respublikası (bundan sonra Konqo) və Belçika arasındakı iş// Russiya Beynəlxalq Hüquq Təhlili. Sankt – Peterburq. 2003. ABŞ. Pat. Rabinovitch R. Absentiada Universal Yurisdiksiya// Fordham Beynəlxalq Hüquq Jurnalı. 2004. Cild 28. Səh. 500 – 520;Səfərov N. Transmilli cinayətlərin təqibi: diplomatik toxunulmazlığa qarşı universal yurisdiksiya// Dövlət və hüquq. 2011. No. 9. Səh. 81 – 92.

[30] 11 Aprel, 2000 – ci il tarixli Həbs Qərarı ilə bağlı iş (Konqo Demokratik Respublikası Belçikaya qarşı). 14 Fevral, 2002 – ci il tarixli qərar. ICJ (Həbs qərarı işi). Paraq. 51.

baxımdan, cinayətkar geri qaytarılmazsa, məsələnin məhkəmə icraatının başladılması üçün müvafiq orqanlara yönəldildiyi təmin ediləcəkdir. Lakin bu öhdəlik hansı növ cinayət icraatlarının icra edilməli olduğunu və ya sıralamanın necə olacağını müəyyənləşdirmir. Bu kontekstdə, "aut dedée aut judicare" (ekstradisiya və ya təqib) öhdəliyi məhkəmə kateqoriyasına aid deyil. Məhkəmə prosesi günahkarın ölkəsində başladılarsa, bu öhdəliyin yerinə yetirildiyi hesab olunacaqdır. "Aut dedée aut judicare" (ekstradisiya və ya təqib) öhdəliyi universal yurisdiksiyaya bərabər hesab olunmamalıdır. "Aut dedée aut judicare" (ekstradisiya və ya təqib) öhdəliyi və universal yurisdiksiyanın bir – birinə yaxın olduğu, lakin onların tamamilə üst – üstə düşmədiyi faktını vurğulamaq lazımdır. Universal yurisdiksiya transmilli məhkəmə səlahiyyətinin bir kateqoriyasıdır. Beynəlxalq Hüquq üzrə BMT - nin Xüsusi Məruzəçisi tərəfindən qeyd edildiyi kimi, profilaktika tədbirlərinin universallığı universal yurisdiksiya və ya məhkəmələrin universal səlahiyyəti, bu kontekstdə ölkələr arasında ekstradisiya öhdəliyinin yerinə yetirilməsi və ya hüquqi icraatların başladılması ilə tədbirlərin universallığı ilə bərabər tutula bilməz; cinayətkarın cəzasız qalmaması və "təhlükəsiz sığınacaq" [31] adlandırılan yerin tapılması təmin edilir. Bununla da, beynəlxalq hüquqda dominant mövqe, "aut dedée aut judicare" (ekstradisiya və ya təqib) öhdəliyi və universal yurisdiksiya oxşardır, lakin onlar hərfi mənada bir – birindən fərqlidir və onların mənaları üst – üstə düşmür.

Baxılmalı digər məqam isə odur ki, aut dedée aut judicare" (ekstradisiya və ya təqib) öhdəliyinin yerinə yetirilməsində BMT – nin sektoral konvensiyaları, milli qanunvericiliyə zidd olmazsa, istisna kimi ölkənin öz vətəndaşlarının ekstradisiyası ilə bağlı deyil. Nüvə terrorizm aktlarının qarşısının alınması haqqında Beynəlxalq Konvensiyanın 11 (2) – ci Maddəsinə əsasən, "Dövlət Tərəfinə öz milli qanununa əsasən günahkarın təhvil verilməsi və ya digər şəkildə həmin şəxsin ekstradisiyası və ya təslim edilməsinin nəzərdə tutulduğu məhkəmə prosesi və ya icraatının nəticəsində müəyyənləşdirilən cəzanı yerinə yetirmək üçün həmin şəxsin müvafiq Dövlətə qaytarılması şərtilə, Dövlət Tərəfinə öz milli qanununa əsasən öz vətəndaşlarından birinin ekstradisiyası və ya təslim edilməsinə icazə verildikdə və bu Dövlət və həmin şəxsin ekstradisiyasına çalışan Dövlət bu seçim və müvafiq hesab oluna biləcək digər şərtlər ilə razılaşarsa, bu zaman şərti ekstradisiya və ya təslim hazırki maddənin 1 – ci paraqrafında müəyyənləşdirilən öhdəliyi yerinə yetirmək üçün yetərli olacaqdır".

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, ölkələrin əksəriyyətinin qanunvericiliyinin ümumi qaydası öz vətəndaşlarının ekstradisiya edilməməsinə uyğundur. Lakin bu qaydanın da müəyyən istisnaları var. Cinayət işlərində qarşılıqlı əməkdaşlıq mexanizmlərində, xüsusilə də, Avropa Birliyinin çərçivəsində nəzərə alınan istisnalar nümunə olaraq verilə bilər.

2002 – ci il İyun tarixli Üzv Dövlətlərdəki Avropa həbs qərarı və təslim prosedurları üzrə Avropa Şurasının Çərçivə qərarına əsasən, ölkənin üzv dövlətləri bu Konvensiyanın 5 – ci Maddəsində müəyyənləşdirilən şərtlərə cavab verilməsi şərtilə təslim edilə bilər. Təqib məqsədinə əsasən icraatların məqsədləri üçün Avropa həbs qərarının tətbiq edildiyi şəxs icranı yerinə yetirən Üzv Dövlətin vətəndaşı və ya rezidenti olarsa, həmin şəxs qərarı qəbul edən Üzv Dövlətin ərazisində həmin şəxsin ifadəsi alındıqdan sonra azadlıqdan məhrum ediləcək və məcburi cəza və ya həbs qərarını yerinə yetirmək üçün icraatı aparan Üzv Dövlətə ekstradisiya şərti ola bilər. Xüsusilə də, beynəlxalq terrorizmə qarşı mübarizənin müqavilə - hüquqi mexanizmlərində yuxarıda qeyd öhdəlikdən geniş şəkildə istifadə onun vacibliyinin sübutu kimi görünə bilər. Məs., Terrorizmin Maliyyələşdirilməsinin Qarşısının Alınması haqqında BMT Konvensiyasına (10 – cu Maddə) əsasən, "İddia edilən cinayətkarın ərazisində olduğu Dövlət Tərəfi həmin şəxsi təhvil vermirsə (ekstradisiya), bu zaman o, heç bir istisna olmadan və cinayətin onun ərazisində törədilib – törədilməməsindən asılı olmayaraq, təqib məqsədilə heç bir gecikmə və ləngimə olmadan işi öz səlahiyyətli orqanlarına təqdim etmək öhdəliyi daşıyır". Oxşar nümunə 13 Aprel, 2005 – ci il tarixli Nüvə Terrorizm aktlarının qarşısının alınması haqqında Beynəlxalq Konvensiyada mövcuddur. Konvensiyanın 10 – cu Maddəsinin 2 – ci paraqrafının tələblərinə əsasən, "qərarın müəyyənləşdirildiyi şərtləri yerinə yetirdikdən sonra cinayətkarın və ya iddia edilən cinayətkarın ərazisində olduğu Dövlət Tərəfi təqib və ya ekstradisiya məqsədilə həmin şəxsin mövcudluğunu təmin etmək üçün öz milli qanununa əsasən müvafiq tədbirlər görməlidir". Lakin 11 – ci maddəyə əsasən, "iddia edilən cinayətkarın ərazisində olduğu Dövlət Tərəfi həmin şəxsi təhvil verməzsə (ekstradisiya), bu zaman o, heç bir istisna olmadan və cinayətin onun ərazisində törədilib – törədilməməsindən asılı olmayaraq,

[31] http://untreaty.un.org/ilc/reports/2004/russian/annex.pdf

təqib məqsədilə heç bir gecikmə vələngimə olmadan həmin Dövlətin qanunlarına əsasən aparılan icraat vasitəsilə işi öz səlahiyyətli orqanlarına təqdim etmək öhdəliyi daşıyır. Həmin orqanlar bu Dövlətin qanununa əsasən ağır xarakterli hər hansı digər cinayət işində olduğu kimi eyni qaydada öz qərarını qəbul edəcəkdir".
10 Sentyabr, 2010 – cu il tarixli Mülki Aviasiya Təhlükəsizliyinə qarşı Qanunsuz Aktların Qarşısının Alınması haqqında Konvensiyaya əsasən, "İddia edilən cinayətkarın ərazisində olduğu Dövlət Tərəfi həmin şəxsi təhvil verməzsə (ekstradisiya), bu zaman o, heç bir istisna olmadan və cinayətin onun ərazisində törədilib – törədilməməsindən asılı olmayaraq, təqib məqsədilə heç bir gecikmə və ləngimə olmadan həmin Dövlətin qanunlarına əsasən aparılan icraat vasitəsilə işi öz səlahiyyətli orqanlarına təqdim etmək öhdəliyi daşıyır. Həmin orqanlar bu Dövlətin qanununa əsasən ağır xarakterli hər hansı digər cinayət işində olduğu kimi eyni qaydada öz qərarını qəbul edəcəkdir". Oxşar normalar terrorizmə qarşı digər konvensiyalarda mövcuddur.
Öhdəliyin universal müqavilə - hüquq səviyyəsində müəyyənləşdirilməsindən əlavə, "aut dedée aut judicare" (ekstradisiya və ya təqib) öhdəliyi həmçinin regional Konvensiyalar çərçivəsində həyata keçirilir. Bu xüsusilə Avropa Şurasının müqavilə alətləri ilə əlaqəlidir. Məs., 16 May, 2006 – cı il tarixində Varşavada qəbul edilən Terrorizmin Qarşısının alınması haqqında Avropa Şurasının Konvensiyasına əsasən, iddia edilən cinayətkarın ərazisində olduğu Dövlət Tərəfi həmin şəxsi təhvil verməzsə (ekstradisiya), bu zaman cinayətin onun ərazisində törədilib – törədilməməsindən asılı olmayaraq, o, qanunvericiliyə əsasən nəzərdə tutulan proses çərçivəsində cinayət icraatlarına başlanılmasını təmin etmək üçün işi səlahiyyətli orqanlarına təqdim etməlidir. Həmin orqanlar bu Dövlətin qanununa əsasən ağır xarakterli hər hansı digər cinayət işində olduğu kimi eyni qaydada öz qərarını qəbul edəcəkdir.
Digər regional alət Fransız dilində danışan Afrika Ölkələrinin Ədliyyə Nazirlərinin Beşinci Konfransında qəbul edilən Ekstradisiya və Terrorizmə qarşı Qarşılıqlı Hüquqi Yardım haqqında Konvensiyadır (16 May, 2008, Rabat). Bu Konvensiyaya əsasən, iddia edilən cinayətkarın ərazisində olduğu Dövlət Tərəfi həmin şəxsi təhvil verməzsə (ekstradisiya), bu zaman o, təqib məqsədilə heç bir gecikmə və ləngimə olmadan həmin Dövlətin qanunlarına əsasən aparılan icraat vasitəsilə işi öz səlahiyyətli orqanlarına təqdim etmək öhdəliyi daşıyır. Bu məsələyə sülh və bəşəriyyətin təhlükəsizliyi üçün təhdid doğuran əməllər haqqında qaydalardan ibarət olan, BMT nəzdində fəaliyyət göstərən Beynəlxalq Hüquq Komissiyasının (UHK) Hesabat Layihəsində də baxılır. Xüsusilə də, Hesabat Layihəsinin 9 – cu Maddəsinə əsasən, "beynəlxalq cinayət məhkəməsinin yurisdiksiyasına xələl yetirmədən, 17, 18, 19 və ya 20 – ci maddələrdə qeyd olunan cinayətlərdən birini (soyqırım, insanlığa qarşı cinayətlər, BMT heyətinə və ya onlara bərabər heyətə qarşı törədilən cinayətlər, hərbi cinayətlər) törətdiyi iddia edilən cinayətkarın ərazisində tapıldığı Dövlət Tərəfi həmin şəxsi təhvil verməli (ekstradisiya) və ya təqibə başlamalıdır". BMT – nin Hüquq Komissiyası "aut dedée aut judicare" (ekstradisiya və ya təqib) öhdəliyi məsələsinə dair öz Yekun Hesabatında qeyd etmişdir ki, "ekstradisiya" və "təqib" arasındakı prioritet istifadə edilən qanunvericilikdən və hər bir iş üçün cinayətin xarakterindən asılı olaraq dəyişəcəkdir.
Cinayətkarların ekstradisiyası ilə əlaqəli bir çox regional konvensiyalara və müqavilələrə məzmun baxımından həm ekstradisiya, həm də təqib məsələsi daxil edilsə də, əsas diqqət adətən qayıtmaq öhdəliyinə yetirilir (müfəssəl şəkildə tənzimlənməklə) və təqib məhkəmə yardımı ilə əlaqəli cəzasızlığın qarşısının alınması üçün alternativ kimi qəbul edilir. Bu modelə əsasən, cinayətkarların ekstradisiyası (təhvil verilməsi) cinayət səlahiyyətinin effektiv olmasına imkan verən zəmanətlərdən biridir. Bu tələb xüsusi hallar və ya istisnalar ilə əhatə olunmazsa, üzv dövlət, tələb və ya sorğudan imtina üçün məcburi və ixtiyari əsaslarla, ümumilikdə onu təhvil vermək öhdəliyi daşıyır.
Yuxarıda qeyd olunanları nəzərə alaraq, ortaq mövqe aşağıdakı kimi təklif olunur:

**Maddə... Terroristlərin ekstradisiyası və ya təqibi ilə bağlı öhdəlik**

Bir dövlətin ərazisində terror cinayətkarının və ya şübhəli şəxsin tutulması halında, iddia edilən cinayətkarın ərazisində olduğu həmin Dövlət Tərəfi həmin şəxsi təhvil verməzsə, bu zaman o, heç bir istisna olmadan və cinayətin onun ərazisində törədilib – törədilməməsindən asılı olmayaraq, təqib məqsədilə heç bir gecikmə və ləngimə olmadan həmin Dövlətin qanunlarına əsasən aparılan icraat vasitəsilə işi öz səlahiyyətli orqanlarına təqdim etmək öhdəliyi daşıyır. Həmin orqanlar bu Dövlətin qanununa əsasən ağır xarakterli hər hansı digər cinayət işində olduğu kimi eyni qaydada öz qərarını qəbul edəcəkdir.

## VI. Qaçqın statusunun geri götürülməsi

***Rəylər:***

Əgər ayrı – ayrı şəxslər terror aktlarında iştirak edərsə, bu zaman onlar beynəlxalq hüquqa əsasən nəzərdə tutulduğu kimi, bu vəziyyətin nəticəsi kimi ədliyyə mexanizmləri ilə qorunmaq hüquqlarından məhrum ediləcəkdir. Həmin hüquqlardan məhrum edilmə həmçinin sığınacaq statusunun əldə edilməsi üçün terror aktlarına məruz qalan qaçqınların tələbilə də baş verə bilər. Bu 28 İyul, 1951 – ci il tarixli Qaçqınların Statusu ilə əlaqəli Konvensiyanın 1 – ci maddəsinin F Paraqrafında aşağıdakı kimi qeyd olunur: "Bu Konvensiyanın müddəaları aşağıdakıların nəzərdə tutulması üçün ciddi səbəblərin olduğu hər hansı şəxsə şamil olunmayacaqdır: (a) həmin cinayətlər ilə əlaqəli tərtib olunmuş beynəlxalq alətlərdə müəyyənləşdirildiyi kimi sülhə qarşı cinayət, müharibə cinayəti və ya insanlığa qarşı cinayət törətdikdə; (b) qaçqın kimi həmin ölkəyə qəbul edilməzdən əvvəl sığınacaq ölkəsindən kənarda ağır, qeyri – siyasi cinayət törətdikdə; (c) BMT – nin məqsədlərinə və prinsiplərinə zidd olan hərəkət və əməllərdə günahkar olduqda".

Bu Maddədə nəzərdə tutulan müəyyən hüquqlardan məhrum edilməyə uyğun olaraq, müəyyən şərtlərə malik olan kəslər tələb və sorğu araşdırılan zaman ilk instansiyada qaçqın statusu əldə etməyə bilər və qaçqın statusu ikinci instansiyada ləğv edilə bilər. Hüquqlardan məhrum olma ilə qaçqın statusunun ləğv edilməsi (bu zaman statusunun davam etməsi üçün tələb olunan şərtlər artıq mövcud olmur və ya bu statusa uyğun olmur) [32] qarışdırılmamalıdır.

Bu müddəanın məqsədi qəbul edən ölkənin əhalisini ağır cinayət (qeyri – siyasi cinayət) törətmiş qaçqının ölkəyə daxil olması təhlükəsindən qorumaqdır. Bu həmçinin siyasi cinayət və ya daha az ağır cinayət törətmiş qaçqın üçün ədalətin təmin edilməsi məqsədini daşıyır. Bu şəxsləri qaçqın statusundan çıxaran müddəaları tətbiq etmək üçün cinayət hesab olunan əməllərə "sığınacaq ölkəsindən kənarda" olan zaman və onların qaçqın kimi bu ölkəyə qəbul edilməsindən əvvəl baxılması tələb olunur. Kənar ölkənin adətən qaçqının mənşə ölkəsi olmasına baxmayaraq, bu ölkənin həmin şəxsin qaçqın kimi müraciət etdiyi ölkədən başqa istənilən ölkə olması da mümkündür.[33]

Qaçqınların Statusu ilə Bağlı Konvensiyanın 1 – F Maddəsinin "b" və "c" bəndlərinin analizində terror aktlarının əlaqədar olduğu cinayət kateqoriyasında qiymətləndirildiyi görünür. "Travaux préparatoires" (Hazırlıq İşləri") konsepsiyasına əsasən, Qaçqınların Statusu ilə Bağlı Konvensiyanın 1 – F Maddəsində müəyyənləşdirilən istisnaların iki vacib məqsədi var: Onlardan biri sosial yardımın verildiyi hüquqi statustdan sui – istifadə edən kəslər üçün qaçqın statusunun müdafiə aləti kimi istifadə edilə bilməyəcəyinin qəbul edilməsidir. Qəbul edən dövlətin ərazisinə daxil olmazdan əvvəl cinayətkar tərəfindən törədilən və ağır cinayət cəzaları olan əməllər və aktlar onu beynəlxalq hüquqi müdafiədən məhrum edir. İkincisi isə Qaçqınların Statusu ilə Bağlı Konvensiyanı hazırlayan kəslər İkinci Dünya Müharibəsi zamanı ağır cinayət aktlarının törədicilərinin və qeyri – siyasi cinayətkarların və yaxud cinayət öhdəliyindən yayınmaq üçün BMT – nin prinsip və məqsədlərinə zidd olaraq hərəkət edənlərin qarşısını almaq məqsədi daşımışdır.

Qaçqınların Statusu ilə Bağlı Konvensiyanın 1 – F Maddəsinin "b" bəndində qeyd olunan müstəsna hallar ekstradisiya haqqında qanuna əsaslanır və buraya yalnız qeyri – siyasi cinayətlər daxildir. Lakin nəzərə alınmalıdır ki, müasir müqavilə qanununa siyasi cinayətlərin izahı deyil. Hər hansı hərəkət və ya əməlin siyasi və ya qeyri – siyasi cinayət hesab olunub – olunmamasının müəyyənləşdirilməsində əsas məqam haqqında söhbət gedən əməlin xarakterini və məqsədini müəyyənləşdirmək, yəni onun siyasi motivlər ilə və yaxud yalnız şəxsi səbəblərdən və ya mənfəət əldə etmək üçün törədilib – törədilmədiyini müəyyənləşdirməkdir. Eyni zamanda, törədilən cinayət və mövcudluğu iddia edilən siyasi məqsəd arasında yaxın və birbaşa səbəb əlaqəsi olmalıdır. Siyasi cinayət hesab olunmaq üçün hərəkətlərin siyasi xarakteri adi keyfiyyətlər ilə

---

32 Qaçqınların Statusu ilə bağlı Konvensiyanın 1 – C Maddəsinə əsasən, "bu Konvensiya hər hansı şəxsə o zaman tətbiq olunmayacaqdır ki: 1) O, könüllü olaraq vətəndaşı olduğu ölkənin müdafiəsindən yenidən faydalanmışdır və ya 2) vətədanşlığını itirərək, könüllü olaraq onu yenidən əldə etmiş və ya 3) yeni vətəndaşlıq almış və yeni vətəndaşı olduğu ölkənin müdafiəsindən istifadə edir və ya 4) könüllü olaraq özü tərk etdiyi, təqib qorxusuna görə qaldığı ölkədə və ya ondan kənarda özünü yenidən bərqərar etmişdir və ya 5) o, qaçqın kimi tanınması ilə əlaqədar halların artıq mövcudluğunu başa çatdırması səbəbilə, vətəndaşı olduğu ölkənin müdafiəsindən faydalanmaqdan imtina etməyə davam edir; 6) qaçqın kimi tanınması ilə əlaqəli halların artıq mövcudluğunun başa çatmasına görə vətəndaşlığı olmayan şəxs olmaq, əvvəlki yaşayış ölkəsinə qayıtmağa qadir olan şəxs".

33 Qaçqın Statusunun Müəyyənləşdirilməsi üçün Prosedur və Meyarlara dair Kitabça (Qaçqınların Statusu ilə Əlaqəli 1951 – ci il Konvensiyası və 1967 – ci il protokolu) — K. : BAITE, 2013. C. 38.

müqayisədə daha aydın olmalıdır. Bu hərəkət və əməllərin xarakterinin qeyd olunan məqsədə uyğun olması məqsədilə məs. hərəkət və əməlin siyasi məqsədləri üçün bu hərəkət və əməlin siyasi elementləri digər elementlərə nisbətən daha böyük olmalıdır. Siyasi xarakterin qəbulu o zaman həddən artıq çətin olur ki, törədilən cinayət vəhşilik və ya qəddarlıq səviyyəsinə çatsın[34]. Ümumiyyətlə, bütün hallarda 1 – F Maddəsinin tələbləri əhəmiyyətli sosial humanitar ehtiyac olan və bu maddənin geniş izahına yol vermədən ehtiyatla istifadə olunmalı sığınacaqları ciddi şəkildə məhdudlaşdırır.

Statusun ləğv edilməsi haqqında müddəaya əsasən, günahkar tərəfindən törədilməsi güman olunan qanunsuz əməlin xarakteri və mümkün təqib qoxusu arasında tarazlıq yaradılmalıdır. Bu kontekstdə ciddi təqib haqqında bir şəxsin qorxuları əsassız olmazsa, yəni, onun həyatı və azadlığı təhlükə altında olarsa, bu zaman onun statusunun geri götürülməsi ilə əlaqəli qaydanı tətbiq edə bilmək üçün törədilən cinayət çox ağır olmalıdır. Əgər təqib qorxusu kiçik miqyaslı olarsa, bu zaman sığınacaq axtaran şəxsin törətdiyi cinayətin cəzasından qaçdığına və onun cinayət törətmək meylinin xoş niyyətli qaçqın xarakterindən üstün olub – olmadığına baxmaq üçün cinayətin xarakteri və ya törədilən cinayət araşdırılmalıdır. [35]

Bundan əlavə, Qaçqınların statusu ilə əlaqəli Konvensiyanın 33 – cü Maddəsinə əsasən, "heç bir Razılığa gələn Dövlət qaçqını irqinə, dininə, milliyyətinə, xüsusi sosial qrupa üzvlüyünə və ya siyasi fikrinə görə həyat və ya azadlığının təhdid olunacağı ərazilərin sərhədlərinə sürgün etməyəcək və ya qaytarmayacaqdır ("zorla geri qaytarmaq"). Çıxarmama və ya geri göndərməmə prinsipinə əsasən, heç bir sığınacaq axtaran şəxs sığınacaq ölkəsindən həyat, azadlıq və ya fiziki təhlükəsizliyinin təhlükədə ola biləcəyi (təhlükə üçün məsuliyyəti bildirməklə) əraziyə deportasiya edilə bilməz. Bu prinsip "jus cogens" (amiranə, qəti) statusa malikdir və hər kəs, o cümlədən bu Konvensiyanın tərəfi olmayan dövlətlər üçün də məcburi xarakter daşıyır. Çıxarmama və ya geri göndərməmə prinsipi zorakı, güclə repatriasiyaya qarşı məcburi qorunma tədbiridir və qaçqınlar haqqında qanunun əsasını təşkil edir və çox güman ki, bu sahədə hüquqi normaların ən vacibidir. Beynəlxalq hüquqda məcburi ekstradisiyadan imtina prinsipini dəstəkləyən və gücləndirən müddəaların daxil olduğu bir sıra konvensiyalar var. Məs., BMT – nin 10 Dekabr, 1984 – cü il tarixli "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın 3 – cü Maddəsinə əsasən, "heç bir Dövlət Tərəfi bir şəxsi işgəncəyə məruz qalmaq təhlükəsinin olacağını inandığı əhəmiyyətli əsaslar olan digər Dövlətə sürgün etməyəcək, qaytarmayacaq ("zorla geri qaytarmaq") və ya təhvil verməyəcəkdir. Lakin Qaçqınların Statusu ilə əlaqəli Konvensiyanın 33- cü Maddəsinin 1 - ci paraqrafı "bir şəxsin olduğu ölkənin təhlükəsizliyi üçün təhlükə hesab olunmaq üçün müvafiq əsasların olduğu və ya xüsusi ağır cinayət haqqında yekun qərar ilə mühakimə olunmaqla, həmin ölkənin ictimaiyyəti üçün təhlükə hesab olunan şəxs" üçün tətbiq olunmayacaqdır. Burada, zorla geri qaytarmama prinsipi qaçqının geri qaytarılmasını və ya repatriasiyasını qadağan edir və 1 – F Maddəsindən fərqli olaraq, qaçqın statusunun geri götürülməsi ilə əlaqəli deyil.

Bu iki hüquqi anlayışın (qaçqın statusunun geri götürülməsi və zorla geri qaytarmama ilə bağlı 1 – F maddəsi) iki müxtəlif hüquqi nəticəsi var. 1 – F maddəsi qaçqın statusunun əldə edilməsi və qeyri – siyasi cinayətlər üçün mümkün cinayət məsuliyyəti üçün tələbləri əks etdirir. Digər tərəfdən 33 – cü maddənin 2 – ci paraqrafı qaçqın statusu əldə edənlər ilə bağlıdır və ölkə və həmin ölkə ictimaiyyətinə qaçqınların təsirini əks etdirir. Zoral geri qaytarmama prinsipinə əsasən, sonuncu qəbul edən ölkənin təhlükəsizliyi baxımından yerinə yetirilməli tədbirlərin həyata keçirilməsi üçün qaçqınların müdafiəsini qadağan edir.[36]

Qaçqınların Statusu ilə Bağlı Konvensiyanın 1 – F Maddəsinin "b" bəndinə əsasən, demək olar ki, bütün milli qanunvericiliklərdə terror aktı ağır cinayət hesab olunur. Xüsusi olaraq, 15.4[37] və 15.5[38] maddələrini nəzərə alaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində terrorizm həbs cəzalarının vaxtını uzadan ən ağır və çox ağır cinayətlər kimi müəyyənləşdirilir (Maddə 214). Qazaxıstan Respublikasının Cinayət Məcəlləsinə

[34] Həmin mənbə
[35] Həmin mənbə
[36] Qaçqınlar və İmmiqrantlar haqqında Avropa Şurası tərəfindən Qaçqın Statusundan kənarlaşdırılma mövqeyi // http://www.refworld.org/docid/4158291a4.html
[37] Yuxarıda qeyd olunan maddəyə əsasən, maksimum 12 illik həbs cəzasına malik, qəsdən və ya bilərəkdən yerinə yetirilən hərəkət ağır cinayətdir.
[38] Yuxarıda qeyd olunan maddəyə əsasən, minimum 12 illik həbs cəzasına malik, qəsdən və ya bilərəkdən yerinə yetirilən hərəkət çox ağır cinayətdir.

(Maddə 11, paraqraf 5) əsasən, maksimum 20 illik həbs müddəti və bilərəkdən / qəsdən törədilən cinayət əməlləri ağır cinayətlərdir. Həmin qanuna əsasən, minimum 20 illik həbs müddəti, ömürlük həbs və ya ölüm cəzası (Maddə 11, paraqraf 1) çox ağır cinayətlərdir. Qazaxıstan Respublikasının Cinayət Məcəlləsinin 225 – ci maddəsində verilən məhkumluq müddətini nəzərə alaraq, terrorizm aktları ağır və ya çox ağır cinayətlər kimi müəyyənləşdirilir. Qırğızıstan Respublikasının Cinayət Məcəlləsinə (Maddə 12) əsasən, ən azından 5 il və 10 ilə kimi həbs müddəti təyin edilən bilərəkdən / qəsdən törədilmiş cinayət əməlləri ağır cinayətlərdir. Həmin qanuna (Maddə 13) əsasən, minimum 10 illik həbs müddəti, ömürlük həbs və ya ölüm cəzası təyin edilən cinayət əməlləri ən ağır cinayətlərdir. Terror aktları 226- cı maddədə istinad edilən həbs müddəti şərtləri nəzərə alınmaqla, ağır və ya çox ağır cinayətlər kimi müəyyənləşdirilir. Bu kateqoriyadakı cinayətlərə terrorizmin maliyələşdirilməsi də daxildir (Qırğızıstan Cinayət Məcəlləsinin 226 – cı Maddəsinin 1 – ci paraqrafı). Digər tərəfdən, cinayət öhdəliyi üçün qarşılıqlı hüquqi yardım və ekstradisiya halında, terror aktı siyasi cinayətin əhatə dairəsində hesab olunmur və şəxslərin həmin əməllərin və aktların törədilməsində iştirakı onları 1951 – ci il Konvensiyasının şərtlərindən kənarlaşdırır.

Qaçqınların Statusu ilə Bağlı Konvensiyanın 1 – F Maddəsinin “c” bəndinə əsasən, aydın olur ki, terrorizm “BMT – nin məqsəd və prinsipləinə qarşı akt” hesab olunur. BMT Nizamnaməsinin 1 – ci maddəsinə əsasən, “BMT – nin məqsədləri beynəlxalq sülh və təhlükəsizliyi qoruyub saxlamaq, millətlər arasında dostluq əlaqələrini inkişaf etdirmək, iqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həllində və irqindən, cinsindən, dilindən və ya dinindən asılı olmayaraq, hər kəs üçün insan hüquqlarına və əsas azadlıqlarına hörmət edilməsinin təşviqində beynəlxalq əməkdaşlığa nail olmaqdır”. Nizamnamənin 2 - ci maddəsinə əsasən, “BMT bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır. Üzvlük nəticəsində yaranan hüquq və faydaları üzvlərin hamısına təmin etmək üçün onlar hazırki Nizamnaməyə əsasən nəzərdə tutulan öhdəlikləri vicdanla və ədalətlə yerinə yetirəcəklər. Bütün üzvlər hazırki Nizamnaməyə əsasən yerinə yetirilən hər hansı hərəkətdə BMT – yə hər bir yardım və dəstəyi göstərəcək və BMT – nin profilaktik və ya mühafizə tədbir gördüyü hər hansı dövlətə yardım və dəstəyin göstərilməsindən yayınacaqdır”. Terror aktlarının yerinə yetirilməsi Qaçqınların Statusu ilə bağlı Konvensiyanın 1 – F paraqrafında müəyyənləşdirilən, BMT – nin məqsəd və prinsiplərinə həddən artıq zidd olan hərəkətdir. Bu vəziyyəti dəstəkləyən əksər aydın bəyanatlar həmçinin bir sıra beynəlxalq konvensiyalarda da mövcuddur. Məs., 14 Sentyabr, 2005 – ci il tarixli 1624 Salı UNSC Qətnaməsində qeyd olunur ki, terror aktı, onun reallaşdırılması və metodları, terrorizmin maliyyələşdirilməsi, terror aktlarının planlaşdırılması və terrorun təsdiq edilməsi BMT prinsiplərinə və məqsədlərinə ziddir.

12 Noyabr, 2001 – ci il tarixli 1377 saylı UNSC Qətnaməsində qeyd edilir ki, beynəlxalq terror aktları, o cümlədən terror aktları üçün maliyyə resurslarının təmin edilməsi, tədbirlərin planlaşdırılması və hazırlanması və ya həmin aktların dəstəklənməsi BMT – nn məqsəd və prinsiplərinə ziddir. Nüvə Terrorizminin Qarşısının Alınması haqqında Beynəlxalq Konvensiyanın Girişində qeyd edilmişdir ki, nüvə terrorizmi aktları ağır nəticələrə malik olacaq və beynəlxalq sülh və təhlükəsizliyi təhdid edəcəkdir. Bu baxımdan BMT – nin ən fundamental məqsədlərindən biri pozulur. Diplomatik Agentlər də daxil olmaqla, Beynəlxalq səviyyədə qorunan Şəxslərə qarşı Cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın Girişinin 2 – ci paraqrafına əsasən, diplomatik agentlərə və digər beynəlxalq səviyyədə qorunan şəxslərə qarşı törədilmiş və onların təhlükəsizliyini pozan cinayətlər beynəlxalq əməkdaşlıq üçün zəruri olan normal beynəlxalq əlaqələrin davam etdirilməsi üçün ciddi təhlükə doğurur.

Qeyd etmək lazımdır ki, Qaçqınların Statusu haqqında Konvensiya yalnız qaçqın statusunu tənzimləyən və bu statusun əldə edilməsi və istifadəsinə ciddi məhdudiyyətlər qoyan sənəd deyil. Afrikada qaçqın problemlərinin xüsusi aspektlərini tənzimləyən, Afrika Birliyi Təşkilatının (OAU) Afrikada Qaçqın Problemlərinin Xüsusi Aspektlərini Tənzimləyən Konvensiyasının 1 – ci Maddəsinin 5 – ci paraqrafında da oxşar məhdudiyyətlər müəyyənləşdirilir (həmçinin OAU Qaçqın Konvensiyaları da adlandırılır) [39]. Bu Maddəyə əsasən, “bu Konvensiyanın müddəaları sığınacaq ölkəsinin aşağıdakıların nəzərdə tutulması üçün ciddi səbəbləri olduğu hər hansı şəxsə şamil olunmayacaqdır: (a) həmin cinayətlər ilə əlaqəli tərtib olunmuş beynəlxalq alətlərdə müəyyənləşdirildiyi kimi sülhə qarşı cinayət, müharibə cinayəti və ya insanlığa qarşı cinayət törətdikdə; (b) qaçqın kimi həmin ölkəyə qəbul edilməzdən əvvəl sığınacaq ölkəsindən kənarda ağır, qeyri – siyasi cinayət

[39] 20 iyun, 1974 – cü il tarixində qüvvəyə minmişdir.

törətdikdə; (c) Afrika Birliyi Təşkilatının məqsədlərinə və prinsiplərinə zidd olan hərəkət və əməllərdə günahkar olduqda; (d) BMT – nin məqsədlərinə və prinsiplərinə zidd olan hərəkət və əməllərdə günahkar olduqda".

Bundan əlavə, İstisna Bəndlərinin Tətbiqi haqqında Əsas Qeyddə göstərildiyi kimi: Qaçqınların Statusu ilə bağlı 1951 – ci il Konvensiyasının 1F Maddəsi, "tətbiq edilməsini nəzərdə tutan zaman yadda saxlanılmalı istisna bəndlər üçün məntiq odur ki, müəyyən aktlar o dərəcədə ağır hesab olunur ki, onlar qaçqın kimi beynəlxalq qorunma haqqında məhrum edilirlər. Onların əsas məqsədi dəhşətli aktların və ağır ümumi cinayətlərin günahkarlarını beynəlxalq qaçqın müdafiəsindən məhrum etmək və həmin şəxslərin öz hərəkətlərinə görə hüquqi məsuliyyətə cəlb olunmaması üçün sığınacaq institutundan sui – isitfadə etməməsini təmin etməkdir.[40]

Terrorizm cinayətlərinə cəlb olunan və 1951 – ci il Konvensiyasının 1 – F Maddəsinin "b" bəndində nəzərdə tutulan vəziyyətdə olan istənilən kəs 1951 – ci il Konvensiyası ilə qeyd olunan hüquqlardan avtomatik olaraq məhrum olunur. Qaçqınların Statusu haqqında Konvensiyanın 1 – F Maddəsi Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 14 (2) Maddəsinə uyğundur və bu paraqrafa əsasən, bu hüquq, həqiqətən də siyasi xüsusiyyətləri olmayan cinayətlər üçün təqib halında icra oluna bilməz. Burada, siyasi cinayətkar və cinayət əməli arasında fərq qoyulmalı və bunu "ağır, qeyri – siyasi cinayət" (*…un crime grave de droit commun*) kimi orijinal Fransız dilində olan mətndən Konvensiyanın 1 – F Maddəsinin müvafiq paraqrafında aydın şəkildə görmək mümkündür. Beynəlxalq Terrorizmin Qarşısının Alınması haqqında 1994 – cü il Bəyannaməsinə və 17 Dekabr, 1996 – cı il tarixli Tamamlayıcı Bəyannamənin 3 – cü Maddəsinə əsasən, ölkələr sığınacağı beynəlxalq hüquqa, xüsusilə də, BMT Nizamnaməsinə və müvafiq beynəlxalq konvensiyalara və protokollara əsasən tələb etmişdir; onlar üçün sığınacağın təmin edilməsindən əvvəl həmin şəxsin vəziyyəti araşdırılır və xüsusi olaraq, insan hüquqlarına əməl etməklə, onların terror aktlarında iştirak edib – etmədiyini müəyyənləşdirmək üçün zəruri tədbirlər görülür. Bu kontekstdə sığınacaq tələb edən şəxsin terror cinayəti ilə bağlı davam edən hüquqi icraata malik olub – olmadığı, cavabdehin terror cinayətini törədib – törətmədiyi, terror cinayətinə dair yekun qərarın olub – olmadığı araşdırılır. Sığınacaq təmin edildikdən sonra ona verilən statusun digər ölkələrə və ya insanlara qarşı terror aktının hazırlanması və ya təşkilində istifadə edilib – edilmədiyi araşdırılır.

BMT- nin Qlobal Terrorla Mübarizə Strategiyasının 7 – ci Maddəsinə (Terrorizmin qarşısının alınması və ona qarşı mübarizə) xüsusi tövsiyyələr daxildir və müvafiq olaraq, o, tərəflərə "sığınacaq axtaran şəxsin sığınacaq verməzdən əvvəl terror fəaliyyətlərində iştirak etmədiyini təmin etmək məqsədilə" və sığınacaq verildikdən sonra qaçqın statusunun terror fəaliyyətlərinin təşkili, başladılması, həmin fəaliyyətlərdə iştirak, onların maliyyələşdirilməsi, təşviqi və ya onlara tolerantlıq göstərilməsində istifadə edilmədiyinin təmin edilməsi məqsədilə müvafiq tədbirləri həyata keçirməyi məsləhət görür.

Terror cinayətlərində iştirak etdiyi iddia olunan sığınacaq axtaran şəxslərin qaçqın statusu ilə bağlı ortaq mövqe aşağıdakı kimi təklif olunur.

**Maddə .. Terrorizmə qarşı mübarizə və qaçqın statusu**

1. Bir şəxsin terror aktları və mütəşəkkil terror aktları törətdiyinə və ya onun terror aktlarını dəstəkləməsi və ya maliyyələşdirməsinə dair ciddi göstərişlər olarsa, bu zaman o, Qaçqınların Statusu haqqında 1951 – ci il Konvensiyası ilə nəzərdə tutulan müdafiədən faydalana bilməz.
2. Sığınacaq axtaran şəxsin öz qaçqın statusundan sui – istifadə etməsinin qarşısını almaq üçün qəbul edən tərəf həmin şəxsin terror cinayətləri ilə münasibət və əlaqəyə malik olub – olmadığını aydınlaşdırmaq məqsədilə beynəlxalq hüquq və milli qanunvericilik çərçivəsində profilaktik tədbirlər görməlidir.

## VII. Siyasi cinayətlərə dair istisnalar

***Rəylər:***

[40] 5 saylı Beynəlxalq Müdafiə haqqında Qaydalar: İstisna Bəndlərinin tətbiqi: Qaçqınların Statusu ilə bağlı 1951 – ci il Konvensiyasının 1F maddəsi <http://www.refworld.org.ru/docid/51f8f6a85.html>

Terrorizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq haqqında qanunda və presedent hüquqda “siyasi cinayət istisnası” beynəlxalq hüququn əsas normasına çevrilmişdir. Bir qayda olaraq, terrorizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq istisnanı nəzərdə tutmur. Əksinə, o, insan hüquqlarının qorunması ilə əlaqəli beynəlxalq standartların yerinə yetirilməsini zəruri edir. Xüsusilə də, Terrorizmin Qarşısının Alınması haqqında Konvensiyada qeyd olunan məsələlərdən heç biri tələb edən Dövlət tərəfinin irqinə, dininə, milliyətinə, etnik mənşəyinə və ya siyasi fikrinə görə bir şəxsin təqibi və ya cəzalandırılması məqsədilə ekstradisiya və ya hüquqi yardım üçün tələb irəli sürmədiyinə işarə etməyəcək və ya zərərə səbəb olacaqlarına inandıqları əsasların olduğu hallarda, onlar ekstradisiya və hüquqi yardım öhdəliyi kimi izah edilə bilməz. Bu cür hüquqi yanaşma cinayət məsuliyyəti və cəzadan yayınmaq üçün insan hüquqlarının müdafiəsindən sui – istifadə ilə üst – üstə düşmür. Bu kontekstdə beynəlxalq cinayət hüququ vacib vəzifəni müəyyənləşdirir və bu qaydaya əsasən, terror cinayətlərinin heç biri ekstradisiya və hüquqi yardım məqsədləri üçün cinayət xətası və ya cinayət xətası və ya siyasi cinayət ilə bağlı siyasi motivlər ilə törədilən cinayət hesab olunmur. Bu kontekstdə cinayət xətası üçün ekstradisiya və ya hüquqi yardım üçün tələb və ya sorğu siyasi cinayət və ya siyasi əsaslarla törədilmiş xəta haqqında əsaslar üzrə ləğv edilə bilməz.

Bu qayda BMT – nin müvafiq sektoral konvensiyalarına norma kimi daxil edilir (bax: Nüvə Maddələrinin Fiziki Mühafizəsi haqqında Konvensiyanın 11 – ci Maddəsi, Nüvə Terrorizminin Qarşısının Alınması haqqında Beynəlxalq Razılaşmanın 15 – ci Maddəsi, Maddə 11, Terrorist Bombalamasının Qarşısının Alınması haqqında Beynəlxalq Konvensiya, Maddə 11, Terrorizmin Maliyyələşdirilməsinin Qarşısının Alınması haqqında Beynəlxalq Konvensiya, 14 – cü Maddə).

Siyasi cinayətlər istisnası anlayışı Terrorizmin Qarşısının Alınması haqqında Avropa Şurası Konvensiyasında Avropa Şurası tərəfindən 1977- ci ildə qəbul edilmiş və terrorizmə qarşı mübarizədə Avropanın qarşılıqlı yardım mexanizmləri çərçivəsində həyata keçirilir. Bu Konvensiya həmçinin terror cinayətlərindən siyasi cinayətlərin ayrılması ilə bağlı ən məcmu və hərtərəfli mətndir. Konvensiyanın hüquqi çərçivəsi yeni terror aktları anlayışının daxil olduğu, 15 May, 2003 – cü il tarixində qəbul edilmiş Əlavə Protokol[41] ilə əhəmiyyətli dərəcədə genişləndirilmişdir. Cari Konvensiyanın ilk nəşrində 1 – ci Maddədə siyasi cinayət hesab olunmayacaq cəmi altı akt var, lakin Konvensiyanın yeni versiyasında həmin kateqoriyaya aid olmayan aktların sayı, o cümkədən cinayət törətmək cəhdləri ona qalxmışdır. Bundan əlavə, ümumi izahatın verildiyi yeni versiyada “c”, “d” və “e” paraqraflarının əvəzinə, müəyyən beynəlxalq konvensiyalar 1 – ci Maddədə qeyd olunur və bu Konvensiyaların hər birinə cinayətkarların ekstradisiyasında istifadə olunan ayrıca qeyri – siyasi cinayətlərin təsnifatı daxildir.[42]

Yeni mətndə siyasi cinayət kimi qeyd olunmayan cinayət cinayətin törədilməsinə cəhd edilməsi aktı üçün ayrıca bölmə açılmışdır. Yeni versiyanın 1 – ci maddəsinə ikinci bənd əlavə olunur. Bu müddəaya əsasən, Razılığa gələn dövlətlər arasındakı ekstradisiya məqsədləri kontekstində yuxarıda qeyd olunan cinayətlərdən birini törətməyə və ya cinayətin törədilməsi yaxud həmin cinayəti törətmək cəhdində və ya cinayətin törədilməsinin təşkilində və yaxud belə cinayəti törətməyə və ya bunu etməyə cəhd etməyə hər hansı şəxsin təhrik edilməsində iştirak etməyə cəhd halında, bu siyasi cinayət hesab olunmur. Beləliklə, Əlavə Protokolun[43] izahlı hesabatında müəyyənləşdirildiyi kimi, Konvensiyanın yeni versiyasında 1 – ci Maddə iki qrup cinayət aktını əhatə edir: ilk növbədə, ümumiyyətlə bütün beynəlxalq konvensiyalara daxil olan hərəkətlər; ikinci isə 1 – ci Maddədəki cinayətlər ilə əlaqəli 2 – ci Maddədəki hərəkətlərdir. İkinci kateqoriyadakı cinayət aktları

[41] Terrorizmin qarşısının alınması haqqında Avropa Konvensiyasına Düzəlişlər edilməsi barədə Protokol // <http://www.conventions.coe.int/>.

[42] Terrorizmin qarşısının alınması haqqında Avropa Şurası Konvensiyasının 1 – ci Maddəsinə (2005 – ci ildə yenilənmişdir) əsasən, cinayətkarların ekstradisiyası məqsədilə Razılığa gələn Dövlətlər arasında aşağıdakı Konvensiyalara əsasən müəyyənləşdirilən cinayətlər siyasi cinayət hesab olunmur: Profilaktika və Cəza haqqında Konvensiya; 17 Dekabr, 1979 – cu il tarixində Nyu Yorkda qəbul edilmiş Girov götürülmüş şəxslər haqqında Beynəlxalq Konvensiya; 3 Mart, 1980 – ci il tarixində Vynada qəbul edilən Nüvə Maddələrinin Fiziki Müdafiəsi haqqında Konvensiya; 24 Fevral, 1988 – ci il tarixində Montrealda imzalanmış Beynəlxalq Mülki Aviasiyaya Xidmət göstərən hava limanlarında qanunsuz zorakılıq aktlarının qarşısının alınmasına dair protokol; 10 Mart, 1988 – ci il tarixində Romada imzalanmış Dəniz Naviqasiyasının Təhlükəsizliyinə qarşı qanunsuz hərəkətlərin qarşısının alınması haqqında Konvensiya; 10 Mart, 1988 – ci iOlunması haqqında Protokol, 15 Dekabr, 1997 – ci il tarixində Nyu Yorkda qəbul edilmiş Terrorist Bombalamasının Qarşısının Alınması haqqında Beynəlxalq Konvensiya, 9 Dekabr, 1999 – cu il tarixində Nyu Yorkda qəbul edilmiş Terrorizmin maliyyələşdirilməsinin Qarşısının Alınması haqqında Beynəlxalq Konvensiya.

[43] Terrorizmin qarşısının alınması haqqında Avropa Konvensiyasına düzəlişlər edilməsi haqqında protokol. İzahedici hesabat // <http://conventions.coe.int/Treaty/EN/cadreprincipal.htm>.

çox ağır olduğu üçün onların haqqında söhbət gedən maddəyə daxil edilməsi göstərişi verilmişdir. Siyasi istisna bəndinin kənarlaşdırılması üzrə müddəalar 16 May, 2005 – ci il tarixli Terrorizmin Qarşısının Alınması haqqında Avropa Şurası Konvensiyasının 20 – ci Maddəsinə daxil edilir.[44]
Ölkələrin milli qanunvericiliyində siyasi cinayətlərdən terror aktlarını ayırmaq nəzərdə tutulur. Məs., İspan Konstitusiyasının 3 – cü Maddəsinin 13 – cü Paraqrafında qeyd edilir ki, terror aktları kateqoriyasına aid olmayan siyasi cinayətləri törədənlər ekstradisiya olunmayacaqdır. Digər nümunə kimi, Cinayətkarların Ekstradisiyası haqqında Azərbaycan Respublikası Qanunun 3 – cü Maddəsinin izahına istinad edilə bilər və heç bir ekstradisiya prosedurunun nəzərdə tutulmadığı cinayətlər aşağıdakı kimi müəyyənləşdirilir: a) soyqırım, b) 1949 – cu il tarixli Cenevrə Konvensiyası ilə nəzərdə tutulan cinayətlər; bu cür cinayəti törətməyə və ya bir şəxs tərəfindən törədilən cinayətdə iştirak etməyə cəhd edərək, həyat, sağlamlıq, təhlükəsizlik və ya insan azadlığına qarşı ağır cinayət, c) Azərbaycan Respublikasının tərəfi olduğu beynəlxalq konvensiyalar ilə nəzərdə tutulan cinayət məsuliyyətinə dair digər aktlar.
Bu baxımdan qeyd edilməlidir ki, cinayətkarların ekstradisiyasının yerinə yetirilməsi və hüquqi mexanizmi siyasi cinayətlərin istisnasının universal qaydada qəbul edilmiş anlayışı əsasında həyata keçirilir və müvafiq olaraq, ekstradisiyalar yalnız ümumi cinayət xətaları ilə məhdudlaşdırılır. İkinci olaraq, həmin məhdudiyyətin məqsədi bir tərəfdən fundamental insan hüquqlarının qorunması, digər tərəfdən isə digər ölkədə daxili siyasi münaqişələrə tələb edən dövlətin müdaxiləsinin qarşısının alınmasıdır. Üçüncüsü isə ağır cinayət xətalarını və terror aktlarını törədənlər üçün cinayət məsuliyyətinin qaçılmazlığı və cəzalandırılmasını təmin etmək üçün yuxarıda qeyd olunan aktlar ardıcıl olaraq "qorunan siyasi cinayətlərin" əhatə dairəsindən istisna edilir".
Terrorizmə qarşı mübarizədə qarşılıqlı əməkdaşlıq sahəsində "siyasi cinayətlərin aradan qaldırılması" ilə bağlı vacib qaydanı nəzərə alaraq, aşağıda verilən xüsusi maddəni ortaq mövqe mətninə əlavə etməklə, mövzunu xüsusi olaraq vurğulamaq tövsiyyə olunur:
**Maddə … Cinayət işlərində və cinayətkarların ekstradisiyasında siyasi cinayətlərin istisna edilməsi**
Terrorizm cinayətlərinin heç biri nə siyasi cinayətlər, nə siyasi cinayətlər ilə bağlı xətalar, nə də şəxsi cinayət məsuliyyəti, ekstradisiya və ya hüquqi yardım məqsədilə siyasi motivlər ilə təşviq edilən cinayətlər hesab olunmur. Bu kontekstdə cinayət əməli üçün ekstradisiya və ya hüquqi yardım üçün tələb və sorğu onun yalnız nə siyasi cinayət, nə siyasi cinayətlər ilə bağlı xətalar, nə də siyasi motivlər ilə təşviq edilən cinayətlər ilə bağlı olması əsasları ilə ləğv edilə bilməz.

## VIII. Terror qurbanlarının müdafiəsi

Kriminalizasiya baxımından bütövlükdə beynəlxalq ictimaiyyəti narahat edən terror aktları ilə əlaqəli terroristlər üçün cinayət məsuliyyətinin erkən bildirilməsi və qaçılmazlığı və cəzalandırmanın təmin edilməsi terrorla mübarizə mexanizminin əsas elementləridir. Lakin terrorla mübarizə mexanizminin digər vacib komponenti terror aktlarının qurbanlarının fundamental hüquqlarının müdafiəsidir, xüsusilə də, a) ədalət və ədalətli rəftara dair effektiv vasitə, b) kompensasiya və layiq olduğu sosial yardım.
Terror qurbanları üçün hüquqi təminatın təmin edilməsi müasir cinayət hüququnun vacib komponentidir. Cinayətin qurbanları səlahiyyətli orqanlar tərəfindən effektiv hüquqi müdafiə vasitəsi və onların həyata keçirilməsi ilə təmin edilməlidir. Cinayətin qurbanı olma müxtəlif formalarda baş verir (çoxlu sayda mülki vətəndaşların ölümü, fiziki və əqli xəsarət, uzunmüddətli yaşayış şəraitinin pisləşməsi, ciddi əhəmiyyətli zərər və başqaları). Bu səbəbdən qurbanlara təmin edilən zəmanətlər fərqli olmalı və cinayət – məhkəmə sistemləri elə qaydada yaradılmalıdır ki, onlar cinayətin qurbanı olmağın müxtəlif formaları ilə mübarizə apara bilsin.
Bu problemə ortaq mövqe, terror cinayətinin xarakterindən irəli gələn vəziyyətləri nəzərə alaraq, terror cinayətlərinin qurbanları kimi eyni qaydada cinayət qurbanları ilə əlaqəli bütün beynəlxalq standart və normalardan istifadə etməkdir. Bu baxımdan, ədalətli kompensasiyanın təmin edilməsi və sosial yardımın göstərilməsi terror qurbanlarının müdafiəsinin digər vacib komponentidir. İlk növbədə, cinayətkarın maliyyə

---

[44] Pentonville qubernatorunun həbs edilməsi exparte Cheng işi ilə bağlı Lord Diplock tərəfindən qeyd edildiyi kimi, "bu məhdudiyyətin iki məqsədi var. Birincisi, Birləşmiş Krallığın xarici ölkələrin daxili siyasi ziddiyyətlərinə müdaxilə etməsinin qarşısının alınması – ikincisi, sosial səbəbi bildirmək, yəni, cinayətkarın ədalətsiz məhkəmə və ya siyasi səbəblərdən cəzalandırılmağa məruz qalma riskinin olduğu yurisdiksiyaya təhvil verilməsi". [1973] AC 931 at 946.

resurslarının müsadirəsindən əldə edilən mənbələrdən zəruri kompensasiya əldə olunmalıdır. Bu mümkün olmazsa, a) ağır cinayətlər ilə ciddi şəkildə xəsarət alan və ya fiziki və ya əqli sağlamlığı əhəmiyyətli dərəcədə xəsarət almış qurbanlar, b) xüsusilə, cinayətin qurbanı olması nəticəsində həmin asılı tərəflərin vəfat etməsi halında və ya fiziki və yaxud əqli qabiliyyətini itirərsə, ailəsinə maddi kompensasiya təmin etmək üçün dövlət tərəfindən zəruri tədbirlər görülməlidir.[45] Bundan əlavə, qurbanlar ictimai, sosial, könüllü və digər kanallardan maddi, tibbi, psixoloji və sosial dəstək ilə təmin edilməlidir.

Ümumiyyətlə, terror aktlarının qurbanlarının müdafiəsinə bir sıra universal və regional səviyyələr daxildir. Cinayət hüququ çərçivəsində universal səviyyədə terrorizm qurbanlarının statusu və hüquqlarının qorunması məsələsi terrorizmə qarşı mübarizə mexanizminin mühüm komponenti kimi BMT tərəfindən tanınır. Bu problemə dair BMT – nin yanaşmasına BMT Baş Assambleyasında 1985 – ci ilin Noyabr ayında qəbul edilən “Cinayət Qurbanları və Hakimiyyətdən Sui – İstifadə üçün Əsas Ədalət Prinsipləri haqqında Bəyannamə”, BMT Qlobal Terrorla Mübarizə Strategiyası, BMT Təhlükəsizlik Şurası və BMT Baş Assambleyasının qərarları və terrorizmlə mübarizə ilə bağlı BMT – nin sektoral konvensiyalarında rast gəlinə bilər. Regional səviyyədə terrorizm qurbanlarının hüquqlarının müdafiəsi məsələsi 24 Noyabr, 1983 – cü il tarixli “Zorakılıq Qurbanlarının Kompensasiyası haqqında Avropa Konvensiyasında”[46], 11 İyul, 2002 – ci il tarixində Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilən “Terrorla Mübarizə və İnsan Hüquqları üzrə Prinsiplərdə”, 16 May, 2005 – ci il tarixli “Terrorizmin aradan qaldırılması haqqında Avropa Şurası Konvensiyasında” və 2005 – ci ilin Mart ayında Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş “Terrorizm qurbanlarının müdafiəsi üzrə prinsiplərdə” mövcuddur.

Cinayət qurbanlarının, o cümlədən Avropa Birliyi səviyyəsində terrorizm qurbanlarının müdafiəsi ilə bağlı bəzi sənədlər qəbul edilmişdir: cinayət icraatlarında qurbanların mövqeyi haqqında 15 Mart, 2001 – ci il tarixli Şuranın Çərçivə Qərarı, cinayət qurbanlarına və başqalarına kompensasiya ilə əlaqəli 29 Aprel, 2004 – cü il tarixli 2004/80/EC saylı Şura Direktivi nümunə kimi göstərilə bilər.

Cinayətə müdaxilə mexanizmində terrorizmin qurbanlarının müdafiəsinin rolunu nəzərə alaraq, ortaq mövqe mətnində qeyd olunan mövzunun aşağıdakı kimi ayrıca maddə formasında daxil edilməsi tövsiyyə edilir:

**Maddə … Terrorizm qurbanlarının müdafiəsi**

1. Terrorizm qurbanlarına beynəlxalq insan hüquqları haqqında qanuna və milli qanunvericiliyə əsasən ədalət məhkəməsinə arxalanmaq hüququ verilməli və ədalətli rəftar təqibin bütün mərhələlərində təmin edilməlidir. Onlar yerli qanuna əsasən tələb edildiyi kimi kompensasiya və sosial yardım almalıdır.

2. Kompensasiya hərəkət və ya əməlin səbəb olduğu zərərlərin əvəzini ödəmək üçün terror aktının günahkarlarının, tənzimləyicilərinin və ya maliyyə tərəfdarlarının aktivlərinin müsadirəsi vasitəsilə terror aktlarının qurbanlarına ödənilməlidir. Kompensasiya tam olaraq həmin mənbələrdən əldə edilə bilmədikdə, dövlətin ərazisindəki hücumların qurbanları şəxsən və ya fiziki sağlamlıqları baxımından məruz qaldıqları zərərin kompensasiyasına töhfə verməlidirlər.

## IX. Xarici terrorçuların fəaliyyətlərinin qarşısının alınması

Ən son və ən təhlükəli təhdidlərdən biri terror təlimininin planlaşdırılması, hazırlanması və ya onlarda iştirak üçün səyahət edilməsi ilə terror fəaliyyətlərində iştirak edən, o cümlədən rezidenti və yaxud vətəndaşı olduqları dövlətdən başqa digər dövlətdə silahlı toqquşma ilə əlaqəli olan şəxslər olan xarici terrorçulardır.

24 Sentyabr, 2014 – cü il tarixində UNSC 2178 saylı qərarı ilə bəyan etmişdir ki, o, xarici terrorçu olmaq üçün səyahət edən şəxslər barəsində ciddi narahatdır. Bu kontekstdə, Qətnamədə qeyd edildiyi kimi, “xarici terrorçular konfliktlərin intensivliyini, müddətini və davamlılığını artırır və həmçinin mənşə ölkələri, tranzit etdikləri dövlətlər və səyahət etdikləri dövlətlər, eləcə də, xarici terrorçuların fəal olduqları və ciddi təhlükəsizlik yükləri ilə təsirləndikləri silahlı toqquşmanın aparıldığı qonşu zona dövlətləri üçün ciddi təhlükə

[45] Bax: Cinayət qurbanları və gücdən sui – istifadə üçün əsas ədalət prinsipləri haqqında bəyanat. 1985. Maddə 12.

[46] Konvensiya Azərbaycan Respublikası tərəfindən 28 Mart, 2000 – ci il tarixində təsdiq edilmişdir. O, 24 Aprel, 1984 – cü ildə Türkiyə Respublikası tərəfindən imzalanmışdır.

doğura bilər”[47]. 1260 (1999) və 1989 (2011) saylı qərarlara əsasən Komitə tərəfindən müəyyənləşdirildiyi kimi, xarici Terrorçuların İraq İslam Dövlətinə və Levanta (ISIL), Əl-Nusra Cəbhəsi (ANF) və digər kameralara, şöbələrə, separatçı qruplara və ya əl – Qaidə törəmələrinə daxil edilməsi və onların bu təşkilatlarda iştirakı ciddi narahatlıq doğurur. Təhlükəsizlik Şurası, effektiv sərhəd nəzarət vasitələri və şəxsiyyəti təsdiq edən sənədlərin və səyahət sənədlərinin verilməsi üzrə nəzarət vasitələrinin və şəxsiyyəti təsdiq edən sənədlərin və səyahət sənədlərinin saxtalaşdırılması və ya yalnış istifadəsinin qarşısının alınması üçün tədbirlərin terroristlərin və terror qruplarının hərəkətinin qarşısını aldığını qeyd edərək, xarici terrorçuların səbəb olduğu təhlükə ilə mübarizə ilə əlaqəli məcmu və hərtərəfli tədbirlərin yerinə yetirilməsinə ehtiyac olduğunu vurğulamışdır. Qərarda həmçinin qeyd edilir ki, xarici terrorçuların fəaliyyətlərinin maliyyələşdirilməsi, planlaşdırılması, hazırlanması və ya reallaşdırılmasında iştirak edənlər və ya onları dəstəkləyənləri məsuliyyətə cəlb etmək və geri qaytarılanların rehabilitasiyasını təmin etmək üçün strategiyalar işlənib hazırlanmalı və həyata keçirilməlidir.

İnsan haqlarının pozulmasının və xalqların öz müqəddəratını təyin etmək hüquqlarının icrasına maneə törədilməsinin bir vasitəsi kimi muzdlulardan istifadə üzrə İşçi Qrupunun hesabatında qeyd edildiyi kimi, xarici döyüşçü termini beynəlxalq hüquqi izaha malik deyil və Qrup tərəfindən məsləhət verilən Üzv Dövlətlərin heç biri bu termini öz milli qanunvericiliklərində izah etməmişdir.[48] “Xarici terrorçu” termini ilk dəfə Terrorizmə qarşı Mübarizə haqqında Qlobal Forum[49] tərəfindən təqdim olunmuş, daha sonra isə BMT Təhlükəsizlik Şurasının 2170 (2014), 2178 (2014) saylı qərarları və digər qərarlarda əks olunmuşdur[50]. Avropa ölkələrində xarici terrorçuların qanunsuz fəaliyyətlərinin yenidən canlanma ehtimalının olması və terrorizm təhlükəsinin artması müxtəlif institusional təşkilatları terrorizm ilə mübarizəyə yanaşmalarını dəyişməyə məcbur etmişdir. “Təhlükəsizlik üzrə Avropa Gündəmi”, transmilli mütəşəkkil cinayət və kiber – cinayət ilə yanaşı, terrorizmi təhlükəsizlik sahəsində üç önəmli məsələdən biri kimi müəyyənləşdirir. Mətndə də qeyd edildiyi kimi, “Avropada - ən yaxın zamanda Parisdə, Kopenhagendə, Brüsseldə - terror hücumları – terrorizm və xarici terrorçulara güclü Aİ cavabına olan ehtiyacı vurğulamışdır. Avropa vətəndaşları, təlimlərdən keçməklə və Avropanın daxili təhlükəsizliyi üçün potensial təhlükəyə səbəb olmaqla, konflikt zonalarında terror qruplarına qoşulmağa davam edirlər. Bu məsələ yeni olmasa da, xüsusilə də, Suriya, İraq və Libyada döyüşçülərin miqyası və davam edən konfliktlərə axınları, eləcə də, bu konfliktlərin şəbəkəli xarakterinin tayı – bərabəri yoxdur”[51].

2016 – cı ildə Avropa Komissiyası, çağdaş çağırışları və onların inkişafını nəzərə alaraq, terrorizmə qarşı mübarizəni təşkil etmək üçün yeni qanunvericilik təşəbbüsünə ehtiyac olduğunu bəyan etmişdir[52]. Yuxarıda qeyd olunan təşəbbüs Avropa Komissiyasının 2 Dekabr, 2015 – ci il tarixində Avropa Parlamentinin və Şura Direktivinin terrorizmə qarşı mübarizə haqqında təklifinin və terrorizmə qarşı mübarizə üzrə 2002/475 / JHA saylı Çərçivəyə düzəlişin qəbulu ilə nəticələnmişdir [53]. Sənəddə qeyd olunur ki, xarici terrorçular tərəfindən

---

[47] BMT Təhlükəsizlik Şurasının 24 Sentyabr, 2014 – cü il tarixli 2178 saylı Qətnaməsi, URL: http://www.un.org/en/sc/ctc/docs/2015/N1454801_RU.pdf ( 07.05. 2015).

[48] İnsan hüquqlarının pozulması və xalqların öz müqəddəratını təyin etmək hüququndan istifadəyə maneə törədilməsi vasitəsi kimi muzdlulardan istifadə haqqında İşçi Qrupunun hesabatı URL: https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N15/260/16/PDF/N1526016.pdf?OpenElement (26.03.2016).

[49] Bax: “Xarici terrorçular” (FTF) təşəbbüsü, FTF fenomeninə daha effektiv cavab reaksiyasına dair Haaqa - Marakeş Memorandumu. [elektronik kaynak]// URL: https://www.thegctf.org/documents/10162/140201/14Sept19_The+Hague-Marrakech+FTF+Memorandum.pdf ( 09.03.2016 )

[50] Bax: *Heinsch R.* Xarici terrorçular (döyüşçülər) və beynəlxalq cinayət hüququ// Beynəlxalq hüquqa əsasən xarici terrorçular (döyüşçülər) / redaktə edən: A. de Guttry, F. Capone, C. Paulussen. Heidelberg: Springer, 2016. Səh. 161-186

[51] Komissiyadan Avropa Parlamentinə, Şurasına, Avropa İqtisadi və Sosial Komitəsinə və Regionlar Komitəsinə Məlumat – Təhlükəsizliyə dair Avropa Gündəmi// URL: https://www.cepol.europa.eu/sites/default/files/european-agenda-security.pdf (28.10. 2015).

[52] Komissiyadan Avropa Parlamentinə, Şurasına, Avropa İqtisadi və Sosial Komitəsinə və Regionlar Komitəsinə Məlumat – Komissiyanın 2016- cı il üzrə İş Proqramı. Strasburq, 27.10.2015 // URL: http://ec.europa.eu/atwork/pdf/cwp_2016_en.pdf (nəşr tarixi: 12.12. 2015).

[53] Avropa Parlamenti və Şurasının Terrorizmə qarşı mübarizə direktivi üçün təklif və Terrorizmə qarşı mübarizə haqqında 2002/475/JHA saylı Şura Çərçivə Qərarının əvəz edilməsi: http://ec.europa.eu/dgs/home-affairs/what-we-do/policies/european-agenda-security/legislative documents/docs/20151202_directive_on_combating_terrorism_en.pdf (nəşr tarixi: 29.03.2016)

törədilən təhlükə Avropa Birliyinin ən vacib problemidir. Xarici terrorçulara qarşı effektiv şəkildə mübarizə apara bilmək üçün terrorizm, açıq təbliğat, komplektləşdirmə, terroristlərin təlimatlandırılması, tərəfdaş qismində terror qruplarının fəaliyyətlərində iştirak və cinayət törətməyə cəhd etmək kimi terror fəaliyyətləri ağır cinayət xətası kimi müəyyənləşdiriləcəkdir.

24 Sentyabr, 2014 – cü il tarixli BMT Təhlükəsizlik Şurasının 2178 saylı Qətnaməsinin 6 – cı Maddəsində nəzərdə tutulduğu kimi, "Dövlətlər təmin edəcəkdir ki, onların öz daxili qanunları və qaydalarında cinayətin ciddiliyini lazımi qaydada əks etdirəcək şəkildə təqib və cəzalandırmaq imkanını təmin etmək üçün yetərli olan ağır cinayət xətaları müəyyənləşdirilir: a) yaşadıqları və ya vətəndaşı olduqları dövlətlərdən başqa digər dövlətə səyahət edən və ya səyahət etməyə cəhd edən vətəndaşlar və terror aktlarının törədilməsi, planlaşdırılması və ya hazırlanması və yaxud onlarda iştirak və ya terror təlimlərinin keçirilməsi və ya qəbul edilməsi məqsədilə yaşadıqları və ya vətəndaşı olduqları dövlətlərdən başqa digər dövlətə səyahət edən və ya səyahət etməyə cəhd edən digər şəxslər, b) terror aktlarının törədilməsi, hazırlanması, planlaşdırılması və ya hazırlanması və yaxud onlarda iştirak və ya terror təlimlərinin keçirilməsi və ya qəbul edilməsi məqsədilə yaşadıqları və ya vətəndaşı olduqları dövlətlərdən başqa digər dövlətə səyahət edən şəxslərin səyahətinin maliyyələşdirilməsi üçün vəsaitlərdən istifadə edilməsi niyyəti ilə və onlardan bu məqsədlə istifadə ediləcəyini bilərəkdən, öz vətəndaşları və ya ərazilərində birbaşa və ya dolayı olaraq hər hansı vasitələr ilə bilərəkdən vəsaitlərin təmin edilməsi və yaxud toplanması və c) terror aktlarının törədilməsi, planlaşdırılması və ya hazırlanması və yaxud onlarda iştirak və ya terror təlimlərinin keçirilməsi və ya qəbul edilməsi məqsədilə yaşadıqları və ya vətəndaşı olduqları dövlətlərdən başqa digər dövlətə səyahət edən şəxslərin səyahətinin bilərəkdən onların vətəndaşları tərəfindən və ya onların ərazisində təşkili və ya digər şəkildə asanlaşdırılması, o cümlədən cəlbetmə fəaliyyətləri".

BMT Təhlükəsizlik Şurasının 12 Fevral, 2015 – ci il tarixli 2199 saylı Qətnaməsinə əsasən, bütün Dövlətlər təmin etməlidir ki, terror aktlarının maliyyələşdirilməsində, planlaşdırılmasında, hazırlanmasında və ya törədilməsində və ya bu aktların dəstəklənməsində iştirak edən hər hansı şəxs məsuliyyətə cəlb olunur və bu cür terror aktları daxili qanun və qaydalarda ağır cinayət xətaları kimi müəyyənləşdirilir və cəza lazımi qaydada həmin terror aktlarının ciddiliyini əks etdirir və burada qeyd olunur ki, S/RES/2199 (2015) 15-01924 5/7 ilə həmin dəstək neft və saflaşdırılmış neft məhsulları, modulyar neft təmizləmə maddələri və əlaqədar maddələri ISIL, ANF və bütün digər şəxslər, qruplar, Əl – Qaidə ilə əlaqəli qurumlar ilə ticarət vasitəsilə təmin edilə bilər[54]. BMT Təhlükəsizlik Şurası müvafiq qərarlar qəbul etdikdən sonra Avropa Şurasının cavab reaksiyası gecikməmiş və Avropa Şurası 22 Oktyabr, 2015 – ci il tarixində Terrorizmin Qarşısının Alınması haqqında Konvensiyaya Əlavə Protokol qəbul etmişdir. Protokola əsasən, terror aktı, məs. terrorizm üçün qrupa qoşulmaq, terror təliminin qəbul edilməsi, terrorizm üçün xaricə getmək və terrorizm üçün xaricə səyahət etməkdən ötrü maddi resursların təmin edilməsi cinayət xətası hesab olunur[55].

Bu kontekstdə xarici terrorçuların fəaliyyətlərinin səbəb olduğu ciddi təhlükəni nəzərə alaraq, ortaq mövqe mətninə aşağıdakıların daxil edilməsi tövsiyyə olunur:

**Maddə … Xarici terrorçuların fəaliyyətlərinin qarşısının alınması**

Xarci terrorçulara qarşı mübarizənin gücləndirilməsi məqsədilə TURKPA Üzv Dövlətlərinin Parlamentləri yaşadıqları və ya vətəndaşı olduqları dövlətlərdən başqa digər dövlətə səyahət edən və ya səyahət etməyə cəhd edən vətəndaşlar və terror aktlarının törədilməsi, planlaşdırılması və ya hazırlanması və yaxud onlarda iştirak və ya terror təlimlərinin keçirilməsi və ya qəbul edilməsi məqsədilə yaşadıqları və ya vətəndaşı olduqları dövlətlərdən başqa digər dövlətə səyahət edən və ya səyahət etməyə cəhd edən digər şəxslərin hərəkətlərinin təsdiq edilməsi ilə əlaqəli zəruri tədbirlər görəcəklər.

## X. Terrorizm və insan hüquqları

---

[54] BMT Təhlükəsizlik Şurasının 12 Fevral, 2015 – ci il tarixli 2199 saylı Qətnaməsi URL: http://www.un.org/en/sc/ctc/docs/2015/N1504031_RU.pdf ( 07.05. 2015).

[55] 22 Oktyabr, 2015 – ci il tarixli Terrorizmin Qarşısının Alınmasına dair Avropa Şurası Konvensiyasının Protokolu // URL: http://www.coe.int/ru/web/conventions/search-on-090000168047c5eatreaties/-/conventions/rms/ ( 23.06.2016). См.: *Bartholin K.* Terrorizmin Qarşısının Alınmasına dair Avropa Şurası Konvensiyasının Əlavə protokolu. // EUCRIM. 2015. № 3. Səh. 124-128.

**Rəylər:**
Terrorizmə qarşı mübarizədə insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsinin təmin edilməsi milli və beynəlxalq mexanizmlərin funksionallığının vacib aspektidir. Terror fəaliyyətlərinin qarşısının alınması üçün məcburi tədbirlərdən istifadədə insan hüquqlarının müdafiəsi üçün bütün standartlara əməl edilməlidir. Terrorizmə qarşı mübarizədə məcburi tədbirlərdən istifadədə insan hüquqlarının qorunması üçün bütün standartlara əməl olunmalıdır. İnsan hüquqları və terrorizmə qarşı mübarizə üzrə prinsiplər 11 İyul, 2002- ci il tarixli OSCE Nazirlər Komitəsinin qərarına uyğun olmalıdır, bu qərarda qeyd olunur ki, "hər hansı özbaşınalıq forması, eləcə də, hər hansı ayrı – seçkilik və ya irqçi davranış istisna edilməklə, terrorizm ilə mübarizə aparmaq üçün Dövlətlər tərəfindən görülən bütün tədbirlər insan hüquqlarına və presedent hüquq prinsipinə uyğun olmalı və müvafiq nəzarətə tabe olmalıdır".
7 Fevral, 2002 – ci il tarixində OSCE tərəfindən qəbul edilən Terrorizmin Qarşısının Alınması və ona qarşı mübarizə haqqında OSCE Nizamnaməsinin 7- ci Maddəsinə əsasən, "OSCE iştirakçı Dövlətləri terrorizmə qarşı effektiv və qətiyyətli tədbirlərin görülməsini və presedent hüquqa, BMT Nizamnaməsinə və beynəlxalq hüququn müvafiq müddəalarına, insan hüquqları üzrə beynəlxalq standartlara və tətbiq olunan hallarda, beynəlxalq humanitar qanuna əsasən bütün terrorizmə qarşı mübarizə tədbirlərini və əməkdaşlığı həyata keçirməyi öz üzərinə götürür".
BMT – nin Qlobal Terrorizmlə Mübarizə Strategiyasında bir daha terrorizmə qarşı mübarizədə beynəlxalq əməkaşlıq və tədbirlərin görülməsi və beynəlxalq hüquq, BMT Nimzanməsi və müvafiq beynəlxalq hüquqi qaydalar, insan hüquqları haqqında beynəlxalq standartlar və beynəlxalq humanitar hüquq və qaçqınların hüquqları əsasında tədbirlərin görülməsinə olan ehtiyac vurğulanır. BMT insan hüquqlarının müdafiəsinin vacibliyinin tanınmasında İnsan Hüquqları Komissiyası tərəfindən qəbul edilən 2005 / 80 saylı qərara əsasən üç il ərzində anti – terror vəziyyətlərində insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi və təşviqi üzrə Xüsusi Məruzəçini təyin etmişdir. BMT Baş Assambleyasının 60 / 251 saylı qərarı ilə İnsan Hüquqları Şurası bu tapşırığın və digər prosedurların yerinə yetirilməsini öz üzərinə götürmüşdür. Şura 30 Sentyabr, 2010 – cu il tarixli 15/15 saylı qərarı ilə terrorizmə qarşı mübarizədə insan hüquqları və fundamental azadlıqların müdafiəsi və təşviqi üzrə Xüsusi Məruzəçinin vəzifə müddətini üç ilə artırmışdır (bundan sonra Xüsusi Məruzəçi adlandırılacaq). 21 Mart, 2013 – cü il tarixli 22/8 saylı qərar ilə bu müddət yenidən üç il artırılmışdır[56].
ECHR, Tomasi Fransaya qarşı işinə dair qərarında qeyd etmişdir ki, təqib tələbləri və cinayətə qarşı mübarizənin, xüsusilə də terrorizmə qarşı mübarizənin çətinliyi ayrı – ayrı şəxslərin fiziki statusunun müdafiəsini məhdudlaşdıra bilməz.[57] *Fox, Campbell və Hartley Birləşmiş Krallığa qarşı* işində Məhkəmə qeyd etmişdir ki, ümumi məqsəd demokratik təşkilatların müdafiəsi və fərdi hüquqların müdafiəsi arasında tarazlıq yaratmaqdır.[58]

Bundan əlavə, 14 Dekabr, 1974 – cü il tarixli Diplomatik Agentlər də daxil olmaqla, Beynəlxalq səviyyədə qorunan Şəxslərə qarşı Cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın 9 – cu Maddəsinə əsasən, bu Konvensiyanın 2 – ci Maddəsində qeyd olunan cinayətlərdən hər hansı biri ilə əlaqəli təqib olunan hər kəs ilə məhkəmə proseslərinin hər bir mərhələsində ədalətli rəftar ediləcəyi təmin edilir. Daha sonra konvensiyalarda sınaqdan keçirilən şəxslərin qəbul edilən hüquqları artırılmışdır. Məs., 9 Dekabr, 1999 – cu il tarixli Terrorizmin Maliyyələşdirilməsinin Qarşısının Alınması haqqında Beynəlxalq Konvensiyanın 17 – ci Maddəsinə əsasən, "həbs edilən və ya bu Konvensiyaya əsasən icraatların aparıldığı və ya hər hansı digər tədbirlərin görüldüyü hər hansı əlaqədar şəxs ilə ədalətli rəftara, o cümlədən həmin şəxsin ərazisində olduğu Dövlətin qanunlarına və beynəlxalq hüququn tətbiq olunan müddəalarına, o cümlədən beynəlxalq insan hüquqları qanununa əsasən bütün hüquqlar və təminatlardan istifadəyə təminat verilir". Bundan əlavə, həmin Konvensiyanın 15 – ci Maddəsinə əsasən, "bu Konvensiyada qeyd olunan heç bir müddəa, qarşılıqlı hüquqi yardıma cəhd etmək və ya ekstradisiya öhdəliyinin müəyyənləşdirilməsi kimi təfsir oluna bilməz, o halda ki, tələb edən dövlət tərəfi 2 – ci maddədə müəyyənləşdirilən cinayətlər üçün ekstradisiya və ya həmin

[56] http://www.ohchr.org/EN/Issues/Terrorism/Pages/SRTerrorismIndex.aspx
[57] Tomasi Fransaya qarşı, Seriya A, No 241-A. P. 39—42, Parasqraf 104—116.
[58] *Fox, Campbell və Hartley Birləşmiş Krallığa qarşı işi* (1990). No 182.13 E.H.R.R.

cinayətlər ilə əlaqəli qarşılıqlı hüquqi yardım tələbinin bir şəxsin irqi, dini, milliyəti, etnik mənşəyi və ya siyasi rəyinə görə təqib edilməsi və ya cəzalandırılması məqsədilə irəli sürüldüyünə və ya bu tələbə əməl edilməsinin bu səbəblərdən istənilən birinə görə həmin şəxsin vəziyyətinə xələl yetirəcəyinə inanmaq üçün əhəmiyyətli səbəblərə malik olsun. Nüvə Terrorizminin Qarşısının Alınması haqqında Beynəlxalq Konvensiyanın 12 və 16 – cı Maddələrində oxşar qaydalar var.

Şəxsi hüquqların müdafiəsinin təmin edilməsi beynəlxalq anti – terrorizm mexanizminin vacib elementidir və onun pozulması terrorizmə qarşı mübarizə prosesinin hüquqiliyi haqqında şübhələr doğurur. Ən önəmlisi isə odur ki, fərdi hüquqların müdafiəsi terrorizmə qarşı mübarizənin, eləcə də, ümumi cinayətlərə qarşı mübarizənin hüquqi olub – olmamasının göstəricisidir. *Yassin Abdullah Kadi Avropa Birliyi və Avropa İcmaları Komissiyasına qarşı* işin dair İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Baş Katibi (Poiares Maduro) öz rəyində vurğulamışdır: "beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılması üçün tədbirlərin görülməsinin zəruri olduğuna dair tələb və iddia İcma qanununun ümumi prinsiplərini susdurmaq və fərdləri öz fundamental hüquqlarından məhrum etmək kimi tətbiq edilə bilməz". [59] Məhkəmə bundan əlavə müəyyənləşdirir ki, iddiaçının mülkiyyət hüquqları pz səhmlərinin dondurulması və davamlılığı ilə bağlı ümumi tədbirlərin tətbiq edilməsi ilə pozulmuşdur[60]. Belə ki, *T-306/01 Əhməd Əli Yusif və Əl Barakaat Beynəlxalq Fondunun Şura və Komissiyaya qarşı və 21 Sentyabr, 2005 – ci il tarixli T-315/01 Yassin Abdullah Kadinin Şura və Komissiyaya qarşı və C-402/05 P və C-415/05 P Yassin Abdullah Kadi və Əl Barakaat Beynəlxalq Fondunun Şura və Komissiyaya qarşı* işi ilə bağlı birinci instansiya məhkəməsinin və Avropa məhkəməsinin qərarları Avropa hüququndan mürəkkəb məsələlər anlayışının başa düşülməsinə, xüsusilə də, terrorizmə qarşı mübarizədə əsas insan hüquqlarının müdafiəsinə əhəmiyyətli töhfə vermişdir[61]. Məhkəməyə aid olan bütün halları nəzərə alaraq, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi aydınlaşdırmışdır ki, Avropa Birliyi tərəfindən tətbiq edilən müvafiq tədbirlər çərçivəsində əsas insan hüquqlarına və ədalətli məhkəmə araşdırması hüququna hörmət qoyulması beynəlxalq öhdəliklərdən asılı olmayaraq təmin edilməlidir (BMT Təhlükəsizliyik Şurasının müvafiq qərarları).

Beynəlxalq cinayətə qarşı mübarizə, xüsusilə də, onun seqmenti olan beynəlxalq terrorizmə qarşı mübarizə cinayət hüququ sahəsində qarşılıqlı yardım sisteminin ən vacib məsələsinə çevrilmişdir. Bu təsadüfi deyil, çünki terror aktlarının ölçüsü qurbanların sayı və regional silahli toqquşmalar ilə eyni səviyyədə dəyən maddi zərər baxımından qiymətləndirilir. Bu kontekstdə terrorizmə qarşı mübarizənin "müharibə" termini ilə müəyyənləşdirilməsi təsadüfi deyil. Lakin həmin terminlərdən istifadə heç bir şəkildə terrorizmə qarşı mübarizə üçün nəzərdə tutulan hüquqi əsaslar ilə bu "müharibənin" aparılmasının vacibliyini azaltmır. Həmin hüquqların əsas beynəlxalq standartları: işgəncənin qadağan edilməsi və cinayət hüququnun geriyə dönük icrasının qadağan edilməsi mütləqdir və istisnalara malik ola bilməz. Məs., İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasının 15 – ci Maddəsinə əsasən, "müharibə və ya xalqın həyatını təhdid altına alan digər ictimai fövqəladə hallar zamanı hər hansı Ali Razılığa Gələn Tərəf bu Konvensiyaya əsasən vəziyyətin tələbkarlığı ilə ciddi şəkildə tələb olunan hallarda öz öhdəliklərinin azaldılması üçün tədbirlər görə bilər, o şərtlə ki, bu cür tədbirlər beynəlxala hüquqa əsasən digər öhdəliklərə zidd olmasın". Lakin bu maddənin 2 – ci paraqrafına əsasən, "qanuni müharibə aktları nəticəsində baş verən ölüm halları istisna olmaqla, bu müddəaya əsasən 2 – ci Maddədən[62] və ya 3- cü[63], 4- cü[64] (paraqraf 1) və 7 –

---

[59] **Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarının terrorizmlə mübarizə aparan zamanı insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında hesabatı**
**http://www2.ohchr.org/english/bodies/hrcouncil/docs/16session/A-HRC-16-50**

[60] Həmin mənbə

[61] Bax: *Herik van den L.* Təhlükəsizlik Şurasının hədəflənən sanksiya rejimləri: Fərdin daha yaxşı müdafiəsinə ehtiyac// LJIL. 2007. Cild 20. № 4. Səh. 797-807.

[62] Maddə 2 – Yaşamaq hüququ

[63] Maddə 3 – İşgəncələrin qadağan edilməsi

[64] Maddə 4 – Köləlik və Məcburi Əmək

ci maddədən heç bir yayınmaya yol verilməyəcəkdir.[65] Bu müddəa Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 4 – cü Maddəsinin 2 – ci paraqrafında müəyyənləşdirilir və millətin varlığını təhdid edən ümumi təhlükə zamanı “bu müddəaya əsasən 6, 7, 8 (1 və 2 – ci paraqraflar), 11, 15, 16 və 18 – ci maddələrdən heç bir yayınmaya yol verilmir”. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 4 – cü Maddəsi ilə əlaqədar olaraq BMT – nin İnsan Hüquqları Komitəsinin 29 saylı Ümumi Şərhində qeyd edildiyi kimi (4 – cü Maddə: Fövqəladə hallar zamanı öhdəliklərin icrasından yayınma), “Paktın 4 – cü Maddəsinin 2 – ci paraqrafında açıq şəkildə müəyyən edilir ki, aşağıdakı maddələrdən heç bir yayınmaya yol verilə bilməz:6 – cı maddə (yaşamaq hüququ), 7 – ci maddə (işgəncə və ya qəddarlığın, qeyri-insani və ya ləyaqəti alçaldan cəzanın qadağan edilməsi, yaxud razılıq olmadan tibbi və ya elmi təcrübə), 8 – ci maddə, 1 və 2 – ci paraqraflar (köləlik, qul ticarəti və əsarətin qadağan edilməsi), 11 – ci maddə (müqavilə öhdəliyinin yerinə yetirilə bilməməsi səbəbilə həbs cəzasının qadağan edilməsi), 15 – ci maddə (cinayət hüququ sahəsində qanunçuluq prinsipi, yəni həm cinayət öhdəliyinin, həm də cəzanın mövcud olan və hərəkət və ya hərəkətsizliyin baş verdiyi vaxt tətbiq edilən hüquqda aydın və dəqiq müddəalar ilə məhdudlaşması, sonrakı qanunun daha yüngün cəza müəyyənləşdirdiyi hallar istisna olmaqla) və 18 – ci maddə (düşüncə, şüur və din azadlığı). Bu müddəalarda nəzərdə tutulan hüquqlardan onlar  4- cü maddənin 2 – ci paraqrafında qeyd olunduqları üçün yayınıla bilməz. “4 – cü maddənin 2 – ci paraqrafında yayınıla bilməyən kimi açıq şəkildə qəbul edilən hüquqların müdafiəsində qeyd olunur ki, onlar prosedurlar zəmanətlər, adətən isə məhkəmə zəmanətləri ilə təmin edilməlidir. Prosedural ehtiyat tədbirləri ilə əlaqəli Paktın müddəaları heç vaxt yayınıla bilməyən hüquqların müdafiəsinə mane olacaq tədbirlərə məruz qala bilməz. 4 – cü Maddəyə  yayınıla bilməyən hüquqlardan kənara çıxma ilə nəticələnə biləcək şəkildə istinad edilə bilməz. Beləliklə, məs., 6 8 maddəsində olduğu kimi, bax: Paktın Roma Əsasnaməsinin 7 (1) (d) və 7 (2) (d) – ci maddəsi, bu maddələrdən tamamilə yayınmaq olmaz, fövqəladə hallar zamanı ölüm cəzasının müəyyənləşdirilməsinə gətirib çıxaran hər hansı bir sınaq Paktın müddəalarına, o cümlədən 14 və 15 – ci maddələrin tələblərinə uyğun olmalıdır”[66].

Terrorizm ilə mübarizə prosesinin qanununa və əsas insan hüquqları və azadlıqlarının müdafiəsinin ümumi olaraq qəbul edilmiş standartlarına uyğun olmalı olduğu faktını nəzərə alaraq, ortaq mövqe aşağıdakı kimi təklif olunur:

**Maddə ... Terrorizmə qarşı mübarizədə insan hüquqlarının müdafiəsi**
Terror cinayətinə görə həbs olunmuş və ya nəzarətə alınmış və yaxud ona qarşı məhkəmədə iddia qaldırılmış hər kəs olduğu Dövlətin qanunvericiliyində nəzərdə tutulan hər hansı əsas azadlıq və zəmanətlərdən istifadə etmək və beynəlxalq insan hüquqları qanunu ilə nəzərdə tutulan ədalətli rəftar hüququna malikdir.

## ƏDƏBİYYAT SİYAHISI

*Acharya A.* Terrorizmin maliyyələşdirilməsinin hədəflənməsi: Beynəlxalq Əməkdaşlıq və Yeni Rejimlər, Nyu York: Routledge, 2009.
*Ambos K.* Livan üçün Xüsusi Məhkəmədə Məhkəmə Yaradıcılığı: Beynəlxalq Hüquqa əsasən Terrorizm Cinayəti mövcuddur?// Leiden Beynəlxalq Hüquq Jurnalı, 2011, Cild 24. No. 3
*Bahan C.* Beynəlxalq Terrorizm: Beynəlxalq Hüquqda Təhlükəsiz Liman Dövlətlərinin qanuniləşdirilməsi// Nyu York Hüquq Məktəbi, Hüquq İcmalı,. 2009. Cild 5. № 10.
*Bantekas I.* Terrorizmin Maliyyələşdirilməsi üzrə Beynəlxalq Hüquq // Amerika Beynəlxalq Hüquq Jurnalı. 2003. Cild 97. No. 2
*Bianchi A., Nagvi Y.* Terrorizmə qarşı Beynəlxalq Hüquq Normalarının Tətbiq edilməsi. Oksford və Portland Oreqon, 2004.
Boister N. Transmilli Cinayət Hüququna Giriş. Oksford: Oksford Universiteti Nəşriyyatı, 2012.

[65] Maddə 7 – Cinayət və cəzada qanunilik prinsipi
[66] CCPR – in 29 saylı Ümumi Rəyi: 4 – cü Maddə: Fövqəladə hallar zamanı öhdəliklərin icrasından yayınma // http://www.refworld.org/docid/453883fd1f.html. Cм.: Desierto D. Zərurət və Milli Fövqəladə Hallara dair Bəndlər: Müasir Müqavilə Şərhində Müstəqillik. Martinus Nijhoff Nəşriyyatı, 2012. Səh.  267-268.

*Buckland A.* Cinayətkar məmurlar: Keçmiş Hökümət Nümayəndələri və Ekstradisiya istisna olmaqla, Siyasi Cinayət / Kaliforniya Hüquq İcmalı. 2006. Cild 94, No.2
*Cassese A.* Beynəlxalq Hüquqda Terrorizmin çoxşaxəli cinayət anlayışı // Beynəlxalq Cinayət Ədalətli Jurnalı. 2006. Cild 4.
*Cohen A.* Beynəlxalq Cinayət Məhkəməsində Terroristlərin təqib edilməsi: Terrorizmə qarşı mübarizə aparmaq üçün istifadə edilməyən alətin yenidən qiymətləndirilməsi // Miçiqan Dövlət Beynəlxalq Hüquq İcmalı. 2012. Cild 20. No. 2
*Conte A.* Terrorizmin qarşısının alınması və cəzalandırılmasında insan hüquqları: Birlik Yanaşmaları: Birləşmiş Krallıq, Kanada, Avstraliya və Yeni Zelandiya. Heidelberg: Springer, 2010.
Terrorizmə qarşı mübarizə: Beynəlxalq Hüquq və Praktika/ Redaktə: A.S. De Frias, K. Samuel. Oksford: Oksford Universitetinin Nəşriyyatı, 2012.
*De Filippo M.* Terror Cinayətləri və Beynəlxalq Əməkdaşlıq: Terrorizm Anlayışına dair Kritik Qeydlər və onun Beynəlxalq Cinayət Kateqoriyasına daxil edilməsi// Avropa Beynəlxalq Hüquq Jurnalı. 2008. Cild 19. No. 3
*De Guttry A., Capone F., Paulussen C.* Beynəlxalq Hüquq və ondan kənarda xarici döyüşçülər.. Heidelberg: Springer, 2016.
***Dimitriu E.*** **Avropa Birliyinin Terrorizm anlayışı. Terrorizmə qarşı mübarizədə Şuranın Çərçivə qərarı // Alman Hüquq Jurnalı. 2004. Cild 5. № 5.**
*Djordjevic N.* Qaçqınlar haqqında Konvensiyanın 1F (b) maddəsi. Beynəlxalq səviyyədə ağır ümumi cinayətlərin qeyri – müəyyən anlayışı // Beynəlxalq Cinayət Ədliyyəsi Jurnalı. 2014. Cild. 12. № 5.
*Duffy H.* ‘Terror üzrə müharibə” və Beynəlxalq Hüquq Çərçivəsi. Kembric: Kembric Universiteti Nəşriyyatı. 2015.
*Durrieu R.* Rethinking Beynəlxalq Hüquqda Çirkli Pulların yuyulması və Terrorizmin maliyyələşdirilməsi: Yeni Qlobal Hüquqi Qaydaya Doğru.. Leiden: Martinuss Nijhoff Publishers, 2013.
*Fabrini F.* Avropa İnsan Hüquqları Məhkəməsi, Fövqəladə icralar və həqiqət hüququ: Terrorizmə qarşı mübarizədə törədilən ciddi insan hüquqları pozuntuları üçün məsuliyyətliliyin təmin edilməsi// İnsan Hüquqları haqqında Qanunun İcmalı. 2013. Cild 14. No. 1.
*Farmer A.* Geri göndərməmə və Jus Cogens (beynəlxalq hüququn kənara qoyula bilməyəcək prinsipləri): Qaçqınların müdafiəsini təhdid edən anti – terror tədbirlərinin məhdudlaşdırılması // Georgetown Miqrasiya Hüququ Jurnalı. 2008. Cild 23. No. 1
*Fassbender B.* Beynəlxalq İctimaiyyətin Konstitusiyası kimi BMT Nizamnaməsi. Leiden: Martinus Nijhoff Publishers, 2009.
*Flory M., Higgins R.* Terrorizm və Beynəlxalq Hüquq. Nyu York: Routledge, 2011.
*Foot R.* BMT, Terrorizm ilə mübarizə və İnsan hüquqları: İnstitusional adaptasiya və sabit fikirlər// İnsan Hüquqları. Rüblük. 2007. Cild 29.
*Friedrichs J.* Beynəlxalq İctimai Düşmənin Müəyyənləşdirilməsi: Beynəlxalq Terrorizmdə Hüquqi Debatdan kənarda siyasi mübarizə// Leiden Beynəlxalq Hüquq Jurnalı. 2006. Cild 19. No. 1
*Gordon R.* Çirkli Pullara qarşı müharibəni uduzmaq: Çirkli Pulların yuyulmasının və terrorizmin maliyyələşdirilməsinin qarşısının alınması üzrə qlobal standartların yenidən düşünülməsi// Duke Müqayisəli və Beynəlxalq Hüquq Jurnalı. 2011. Cild 21.
Nazirlər Komitəsi tərəfindən 804 – cü yığıncağında qəbul edilən, terrorizmə qarşı mübarizə və insan hüquqları qaydaları (11 İyul, 2002 – ci il) // http://www.coe.int/t/dlapil/cahdi/Source/Docs2002/H_2002_4E.pdf
*Hathaway J., Foster M. Qaçqın Statusu haqqında Qanun. Kembric: Kembric Universiteti Nəşriyyatı, 2012.*
*Heinz W., Arend J.-M.* Terrorizmə qarşı beynəlxalq mübarizə və Alman Hökuməti və Parlamentinə Tövsiyyələr ilə İnsan Hüquqlarına Müdafiəsi. Berlin: Alman İnsan Hüquqları İnstitutu. 2005
***Inazumi M.*** **Müasir Beynəlxalq Hüquqda Universal Yurisdiksiya: Beynəlxalq Hüquqa əsasən Ağır Cinayətlərin təqib edilməsi üçün milli yurisdiksiyanın genişləndirilməsi. Antwerpen: Intersentia, 2005.**
Terrorizmin Beynəlxalq Hüquqi Ölçüləri/ Redaktə edən: P. A. Fernández Sánchez. Leiden: Martinuss Nijhoff Publishers, 2009.

*Jackson R.* Routledge Kritik Terrorizm Araşdırmaları Kitabçası. Nyu York: Routledge, 2016.
*Jae-Myong Kong.* Terrorizmin maliyyələşdirilməsinin və çirkli pulların yuyulmasının qarşısının alınması. Heidelberg: Springer, 2006.
*Jarvis L., Lister M.* Terrorizmə qarşı mübarizədə kritik perspektivlər. Nyu York: Routledge, 2015.
*Jarvis L., Macdonald S., Chen T.* Terrorizm Online: Siyasət, Hüquq, Texnologiya, Nyu York: Routledge, 2015.
*Jones J., Davidson R. Ekstradisiya və Qarşılıqlı Hüquqi Yardım Kitabçası. Oksford: Kembric Universiteti Nəşriyyatı. 2011.*
*Joyner C. Nüvə Terrorizminə qarşı mübarizə: Şərti cavab// Avropa Beynəlxalq Hüquq Jurnalı. 2007. Cild 18. No.2*
*Kent R.* Müqayisəli Anti – Terrorizm Hüququ. Kembric: Kembric Universiteti Nəşriyyatı. 2015
*Kent R. The 9/11 Təsir: Müqayisəli terrorizmə qarşı mübarizə: Kembric Universiteti Nəşriyyatı. 2012.*
*Lieberman D. Terrorçulardan inqilabçıların seçilməsi: ABŞ Ekstradisiya işlərində siyasi cinayət istisnasının tətbiqi // Stanford Hüquq İcmalı. 2006. Cild 59*
*Matson C., Gottselig G.* Terrorizmin Maliyyələşdirilməsinin qarşısının alınması: Qanunvericilik layihəsi üçün təlimat kitabçası. Vaşinqton: Beynəlxalq Valyuta Fondu Hüquqi bölməsi, 2003.
*McClean D. Transmilli Mütəşəkkil Cinayət. BMT Konvensiyası və onun Protokollarına dair şərhlər. Oksford: Oksford Universiteti Nəşriyyatı. 2007.*
*Nacos B.* Terrorizm və Terrorizmə qarşı mübarizə. Nyu York: Routledge, 2016.
*Nesi G.* Terrorizmə qarşə mübarizədə Beynəlxalq əməkdaşlıq: Terrorizmə qarşı mübarizədə BMT və Regional Təşkilatlar. Aldershot: Ashgate, 2013.
Ekstradisiya və Qarşılıqlı Yardım Hüququna dair Nicholls, Montgomery və Knowles. Oksford. *Oksford Universiteti Nəşriyyatı*, 2013.
Təqib və ekstradisiya öhdəlikləri ilə əlaqəli suallar (Belçika Seneqala qarşı)// http://www.icj-cij.org/docket/files/144/17064.pdf
*Ramraj V., Hor M., Roach K.* Qlobal anti – terrorizm qanunu və siyasəti. Kembric: Kembric Universiteti Nəşriyyatı. 2012.
*Sadoff D.* Beynəlxalq fərarilərin məsuliyyətə cəlb olunması: Ekstradisiya və alternativlər. Kembric: Kembric Universiteti Nəşriyyatı. 2016.
*Saul B.* Beynəlxalq hüquqda "terrorizm" anlayışının izahı vermək cəhdləri // Niderland Beynəlxalq Hüquq İcmalı. 2005. No.1
*Saul B.* Beynəlxalq hüquqda terrorizmin müəyyənləşdirilməsi. Oksford: Oksford Universiteti Nəşriyyatı. 2008.
*Saul B.* Radikal Haaqa qanunlarının tətbiqi: BMT- nin xüsusi məhkəməsi Livan üçün Beynəlxalq Transmilli Terrorizm Cinayətini tətbiq edir // Leiden Beynəlxalq Hüquq Jurnalı. 2011. Cild 24. No. 3
*Saul B. Beynəlxalq Hüquq və Terrorizmə dair araşdırma kitabçası. Cheltenham: Edward Elgar Nəşriyyatı, 2014.*
*Schabas W.* Beynəlxalq Cinayət Hüququnun Kembric ortağı. Kembric: Kembric Universiteti Nəşriyyatı. 2012.
*Sorel J.-M.* Terrorizm anlayışı və onun maliyyələşdirilməsi haqqında bəzi məsələlər// Avropa Beynəlxalq Hüquq Jurnalı. 2003. Cild 14. No. 2.

***Stephens T. Beynəlxalq Cinayət Hüququ və Beynəlxalq Terrorizmə qarşı cavab reaksiyası// UNSW hüquq jurnalı. 2004. Cild 27. No.2.***
Qaçqınların statusu ilə bağlı 1951 – ci il konvensiyası və onun 1967 – ci il protokolları: Şərhlər / Redaktə edən: A. Zimmermann. Oksford: Oksford Universiteti Nəşriyyat. 2011
Ekstradisiya və ya təqib öhdəliyi (*aut dedere aut judicare). Beynəlxalq Hüquq Komissiyasının 2014 – cü il Yekun Hesabatı // Beynəlxalq Hüquq Komissiyasının İllik Nəşri. 2014, cild II (ikinci hissə).*
Routledge Terrorizm Araşdırması Kitabçası / Redaktə edən: A. Schmid. Nyu York: Routledge, 2011.
*Trapp K.* Beynəlxalq Terrorizm üçün Dövlət Məsuliyyəti. Oksford və Portland Oreqon, 2012.
Van den Herik L, Schrijver N. Hissəli Beynəlxalq Hüquq Nizamında Terrorizmə qarşı mübarizə strategiyaları. Kembric: Kembric Universiteti Nəşri. 2012

*Volders B., Sauer T.* Nüvə terrorizmi: Təhlükəyə qarşı mübarizə. Nyu York: Routledge, 2016.
*Von Schorlemer S.* İnsan Hüquqları: Terrorizmə qarşı müharibənin substantiv və institusional nəticələri// Avropa Beynəlxalq Hüquq Jurnalı. 2003. Cild 14. No. 2
*Weinman G.* Kiber-terrorizm: Bütün qorxuların cəmi?// Konflikt və terrorizm üzrə tədqiqatlar. 2005. Cild 28.
*Wilson R.* "Terror üzrə müharibədə" insan hüquqları. Kembric: Kembric Universiteti Nəşriyyatı. 2005.